**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

25 iyul 2026-cı il №27 (9180) www.muallim.edu.az muallim@media.edu.az

## Bir teleqram Azərbaycanın elm tarixini dəyişdi



Bir alim düşünün. Ölkəsinin iqlimini, relyefini araşdırır. Bəzən bir əraziyə gedib oranı qarış-qarış gəzir, yüksəklikləri tək-tək nəzərdən keçirir. Nəhayət, axtardığını tapır. İdeal yer seçilir. Onun bir amalı var: ölkəsində regionun ən mühüm elm mərkəzlərindən birini yaratmaq. Bu işə razılıq almaq üçün, bəlkə, onlarla, yüzlərlə məktub yazmışdı. Və 1959-cu il. Bir teleqram Azərbaycanın elm tarixini dəyişir. Almaniyadan sifariş olunan diametri 2 metr olan nəhəng teleskop Moskvaya çatmışdı. Bəli, o şəxs ölkəmizin elm tarixində silinməz iz qoyan Yusif Məmmədəliyev idi.

Bax səh.7

# DÖVLƏT PROQRAMI ÜZRƏ TƏQAÜDÇÜLƏR MÜƏYYƏN OLUNUB

## 2026-2027-ci tədris ili üzrə Dövlət Proqramı çərçivəsində 125 bakalavriat, 353 magistratura və 22 doktorantura səviyyəsində olmaqla, ümumilikdə 500 nəfər təhsil almaq hüququ qazanıb

“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində 2026–2027-ci tədris ili üzrə bakalavriat, magistratura və doktorantura səviyyələrinə qəbulun nəticələri müəyyən olunub.

Müsabiqənin nəticələrinə əsasən, namizədlər müvafiq seçim qaydalarına aid meyarlara uyğun olaraq, Dövlət Proqramına qəbul olunub və proqram iştirakçısı adını qazanıblar. Belə ki, 2026–2027-ci tədris ili üzrə Dövlət Proqramı çərçivəsində 125 bakalavriat, 353 magistratura və 22 doktorantura səviyyəsində olmaqla, ümumilikdə 500 nəfər təhsil almaq hüququ qazanıb.

Dövlət Proqramı çərçivəsində proqram iştirakçısı seçilən 500 nəfərdən 155 nəfəri dünyanın ən nüfuzlu 10 universiteti sırasında yer alan ali təhsil müəssisələrində təhsil alacaq. Bu təhsil müəssisələri sırasına "Stanford University", "Massachusetts Institute of Technology", "National University of Singapore", "University of Oxford", "University of California, Berkeley", "ETH Zurich", "Harvard University", "Yale University" kimi dünyanın ən nüfuzlu universitetləri daxildir.



## Qarabağ Universiteti: inkişafın yeni mərhələsi



Əldə olunan nəticələr 2026/2027-ci tədris ilinə daha böyük hədəflərlə qədəm qoymaq üçün möhkəm zəmin yaratmışdır. Bakalavriat səviyyəsi üzrə ixtisasların sayının 49-a çatdırılması və 1403 tələbənin qəbulu nəzərdə tutulur. Qəbul yalnız dövlət sifarişi əsasında və əyani təhsil forması üzrə həyata keçiriləcəkdir. Plan yerlərinin 758-i Azərbaycan, 645-i ingilis bölməsi üzrə müəyyən edilmişdir.

Bax səh.4

## Bakı “Dünyanın ən yaxşı tələbə şəhərləri” reytinqində ilk 100-lüyə daxil olub



Dünyanın nüfuzlu reytinq təşkilatlarından olan "Quacquarelli Symonds" (QS) tərəfindən 2026-cı il üzrə “Best Student Cities” (Dünyanın ən yaxşı tələbə şəhərləri) reytinqi açıqlanıb. Dünyanın müxtəlif ölkələrindən 150 şəhərin qiymətləndirildiyi reytinqdə Bakı ötən illə müqayisədə 22 pillə irəliləyərək 95-ci yerdə qərarlaşıb.

Bakı bu mövqeni Böyük Britaniyanın Aberdin, Çinin Quançjou və Cənubi Afrika Respublikasının Yohannesburq şəhərləri ilə bölüşür.

Reytinq nəticələrinə əsasən, Bakı Cənubi Qafqaz regionunda ən yüksək nəticə göstərərək regionun lider tələbə şəhəri olub. Eyni zamanda, şəhər Mərkəzi Asiyanın bir sıra aparıcı şəhərlərini də geridə qoyub.

Ardı səh.2

## Valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan yeni maliyyələşmə modeli tətbiq olunacaq

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 iyul 2026-cı il tarixli 218 nömrəli Qərarı ilə “Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi Qaydaları” təsdiq edilib. Yeni maliyyələşmə modeli məktəbəqədər təhsilin əlçatanlığının artırılmasına, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Model çərçivəsində valideynlərə uşaqları üçün geniş seçim imkanı yaradılır və daha çox uşağın keyfiyyətli məktəbəqədər təhsilə cəlb olunması hədəflənir. Qaydalara əsasən, Elm və Təhsil Nazirliyi tərəfindən hər il müsabiqə keçiriləcək.



Bax səh.5

### Məktəblilərimiz beynəlxalq olimpiadalarda uğur qazanıblar

Bax səh.2

### 5 mindən çox müraciətçidən 53-ü ”Maarifçi” oldu

Bax səh.5

### London Universitet Kollecində təhsil alan azərbaycanlı tələbə

Bax səh.7

### Komandamız Avropa Universitet Oyunlarının yarımfinalına yüksəlib

Bax səh.8

# Elm və təhsil naziri Saatlıda vətəndaşları qəbul edib



**İyulun 24-də elm və təhsil naziri Emin Əmrullayev Saatlı şəhərində vətəndaş qəbulu keçirib.**

Qəbulda Saatlı, Sabirabad və İmişli sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

# Elm və təhsil nazirinin müavini Pakistanın dövlət naziri ilə görüşüb



**İyulun 23-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Pakistan İslam Respublikasının federal təhsil və peşə hazırlığı dövlət naziri Vaciha Qəmər ilə görüş keçirib.**

Görüşdə Azərbaycan ilə Pakistan arasında elm və təhsil sahəsində mövcud əlaqələr, bu istiqamətdə həyata keçirilən birgə fəaliyyətlər və gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

# Tələbələrin peşəkar inkişafına və məşğulluq imkanlarının artırılmasına mühüm töhfə



## Həsən Həsənli "IT SkillSprint" proqramının bağlanış mərasimində iştirak edib




Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin tərəfdaşlığı ilə həyata keçirilən "IT SkillSprint" beynəlxalq intensiv təhsil proqramının bağlanış mərasimi baş tutub. Mərasimdə elm və təhsil nazirinin müavini Həsən Həsənli iştirak edib.

Tədbirdə çıxış edən nazir müavini bildirib ki, son illərdə həyata keçirilən islahatlar, beynəlxalq tərəfdaşlıqlar, ikili diplom proqramları və intensiv təlim formatları sayəsində gənclərin dünyanın qabaqcıl təhsil və texnologiyalarına ölkədən çıxmadan çıxış üçün geniş imkanları yaradılır. Onun sözlərinə görə, "IT SkillSprint" proqramı təhsil ilə sənaye arasında əməkdaşlığın gücləndirilməsi, tələbələrin əmək bazarının tələblərinə uyğun praktik bacarıqlar qazanması baxımından uğurlu təşəbbüslərdəndir.

Həsən Həsənli qeyd edib ki, bu cür proqramlar tələbələrin peşəkar inkişafına və məşğulluq imkanlarının artırılmasına mühüm töhfə verir. Artıq proqram iştirakçılarından bəziləri təhsillərinə davam edərkən işlə təmin olunublar.

Qeyd edək ki, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və "Ironhack" tədris şirkətinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən proqramın məqsədi tələbələrin informasiya texnologiyaları sahəsində nəzəri bilik və praktiki bacarıqlarını inkişaf etdirmək, onların qlobal əmək bazarında rəqabətqabiliyyətliliyini artırmaq və universitet—sənaye əməkdaşlığını gücləndirməkdir.

Bağlanış mərasimində yüksək nəticə göstərən tələbələr və hakaton qalibləri mükafatlandırılıb, proqramı uğurla başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

Tədbirin sonunda iştirakçıların əmək bazarındakı imkanlarla tanış olması məqsədilə karyera sərgisi təşkil edilib.

# Nazir müavini Özbəkistanda bir sıra görüşlər keçirib

## Firudin Qurbanov özbəkistanlı həmkarları ilə təhsilin müxtəlif sahələri üzrə müzakirələr aparıb







**Elm və təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 15-ci iclası çərçivəsində Özbəkistanda bir sıra görüşlər keçirib.**

Firudin Qurbanov Özbəkistanın məktəbəqədər və ümumi təhsil nazirinin müavini Farxod Bokiyev ilə görüşüb. Görüşdə məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlığın inkişafı, STEAM əsaslı təhsilin təşviqi, Azərbaycan və özbək dillərinin qarşılıqlı tədrisi, eləcə də gələcək birgə təşəbbüslər müzakirə olunub.

Səfər çərçivəsində nazir müavini Abdulla Avloni adına Milli Pedaqoji Peşəkarlıq İnstitutunu ziyarət edib. İnstitutun nəzdində fəaliyyət göstərən STEAM mərkəzində yaradılmış şərait və infrastrukturla tanış olub.

Nazir müavini Firudin Qurbanov Özbəkistanın ali təhsil, elm və innovasiyalar nazirinin birinci müavini Sardor Radjabov ilə də görüşüb. Görüşdə universitetlərarası əməkdaşlığın genişləndirilməsi, hər iki ölkədə təhsil alan tələbələrin sayının qarşılıqlı artırılması, Azərbaycan-Özbəkistan birgə elmi-tədqiqat fondunun yaradılması və ali təhsil sahəsində birgə tədbirlərin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb.

# Apellyasiya Şurasının növbəti iclası keçirilib

**İyulun 21-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Şuranın növbəti iclası keçirilib.**

İclasda Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin Elm sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Aytac Mustafazadə və Zeynəb Həsənovanın, Elm və Təhsil Nazirliyinin Elm, ali və peşə təhsili şöbəsinin Elm sektorunun aparıcı məsləhətçisi və Peşə Təhsili üzrə Dövlət Agentliyinin Sənədlərlə və müraciətlərlə iş sektorunun məsləhətçisi vəzifəsinə namizəd Nuriyyə Hacıyevanın, Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Keyfiyyət təminatı və nəzarət şöbəsinin baş məsləhətçisi vəzifəsinə namizəd Cəmilə Hacıyevanın, Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin İmtahan və qiymətləndirmə şöbəsinin baş məsləhətçisi vəzifəsinə namizəd Zibeydə Süleymanlının şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyası üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb, 3 şikayətin təmin edilməsi, 1 şikayətin qismən təmin edilməsi, 2 şikayətin təmin edilməməsi barədə Şura tərəfindən qərarlar qəbul olunub.

# Bakı "Dünyanın ən yaxşı tələbə şəhərləri" reytinqində ilk 100-lüyə daxil olub



**(Əvvəli 1-ci səhifədə)**

Belə ki, reytinqdə Astana 119-cu, Bişkek 137-ci, Daşkənd isə 146-cı mövqedə yer alır.

QS-in "Best Student Cities" reytinqi şəhərləri ali təhsil və tələbə həyatı üçün əlverişlilik baxımından kompleks şəkildə qiymətləndirir. Qiymətləndirmə zamanı şəhərdə fəaliyyət göstərən universitetlərin QS Dünya Universitetləri Reytinqindəki göstəriciləri, məzunların məşğulluq imkanları, təhlükəsizlik və yaşayış mühiti, təhsil və yaşayış xərclərinin əlverişliliyi, beynəlxalq tələbələrin sayı və müxtəlifliyi, eləcə də həmin şəhərdə təhsil almış tələbələrin rəyləri nəzərə alınır.

# Məktəblilərimiz beynəlxalq kimya və biologiya olimpiadalarında uğur qazanıblar

**Məktəblilərimiz beynəlxalq fənn olimpiadalarında növbəti uğura imza atıblar. Belə ki, şagirdlərimiz Beynəlxalq Kimya Olimpiadasında (IChO) 1 gümüş və 2 bürünc, Beynəlxalq Biologiya Olimpiadasında isə 1 bürünc medal və 3 həvəsləndirici mükafat qazanıblar.**







İyulun 10—19-da Özbəkistanın Daşkənd şəhərində keçirilən, 90-dan çox ölkədən 350-dən artıq məktəblinin iştirak etdiyi Beynəlxalq Kimya Olimpiadasında Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Yaqub Baratlı gümüş medal qazanıb. Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən "Gənc istedadlar" liseyinin 11-ci sinif şagirdi Elman Kərimli və Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdi Qurban Piriyev isə bürünc medala layiq görülüblər.

İyulun 12-19-da isə Litvanın Vilnyus şəhərində keçirilən Beynəlxalq Biologiya Olimpiadasında Abşeron rayonu Masazır kənd 3 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Oğuz Əlili bürünc medala layiq görülüb. Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi Yalçın Oruclu, Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyanın 11-ci sinif şagirdi İlham Əliyev və Astara rayonu Z.Əhmədzadə adına Pensər kənd 2 nömrəli tam orta məktəb-liseyin 10-cu sinif şagirdi Rəsul Şahverdiyev isə həvəsləndirici mükafata layiq görülüblər.

Şagirdlərimizi beynəlxalq olimpiadalarda qazandıqları uğurlar münasibətilə təbrik edir, onlara yeni nailiyyətlər arzulayırıq.

# PEŞƏ TƏHSİLİ: ƏLÇATANLIQ VƏ KEYFİYYƏT ARTIR

## Qəbələdə qida emalı üzrə müasir tədris-istehsalat emalatxanasının təqdimatı keçirilib

İyulun 24-də Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində qida emalı və qida məhsullarının qurudulması üzrə müasir tədris-istehsalat emalatxanasının açılışı olub.

Tədbirdə Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı, Peşə Təhsilinin İnkişafı Fondunun direktoru İdris Musayev, tərəfdaş təşkilatların təmsilçiləri, təhsil müəssisələrinin rəhbərləri, müəllimlər və tələbələr iştirak ediblər.

Tədbirdə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli peşə təhsilinin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. Aparat rəhbəri vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, qarşıdakı illərdə 21 yeni peşə təhsili müəssisəsi tikiləcək, 2 müəssisə isə əsaslı təmir olunacaq. Bununla yanaşı, peşə təhsilinin beynəlxalq əməkdaşlıq imkanları da genişləndirilir. Azərbaycan və Türkiyə arasında bu sahədə əməkdaşlıq çərçivəsində ölkəmizdə iki peşə təhsili müəssisəsi yaradılacaq.

Mətin Kərimli bildirib ki, həyata keçirilən bu layihələr peşə təhsilinin əlçatanlığının və keyfiyyətinin artırılmasına, ölkədə məşğulluğun yüksəldilməsinə, əmək bazarının tələblərinə uyğun insan kapitalının formalaşdırılmasına və sosial-iqtisadi inkişafa mühüm töhfə verir. O əlavə edib ki, yeni istifadəyə verilən tədris-istehsalat emalatxanası da təhsillə istehsal arasında əlaqələrin gücləndirilməsi, regionlarda yerli istehsalın inkişafı və gənclərin məşğulluq imkanlarının genişlənməsi baxımından əhəmiyyətli rol oynayacaq. Belə bir emalatxananın açılması həm də o deməkdir ki, peşə təhsili ilə özəl sahə, işəgötürənlər arasında sıx əlaqələr mövcuddur.







Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı isə çıxışında peşə təhsilində sahibkarlıq düşüncə tərzinin formalaşdırılmasının və biznes ideyalarının dəstəklənməsinin prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. O, Qəbələ və Bərdə Dövlət Peşə Təhsil mərkəzlərində qida emalı və qida məhsullarının qurudulması üzrə müasir tədris-istehsalat emalatxanalarının Peşə Təhsilinin İnkişafı Fondunun dəstəyi ilə yaradıldığını vurğulayıb. Layihə tələbələrin praktiki bacarıqlarının inkişaf etdirilməsinə və əmək bazarının tələblərinə uyğun peşəkar kadr hazırlığına xidmət edir.

Peşə Təhsilinin İnkişafı Fondunun direktoru İdris Musayev çıxışı zamanı qeyd edib ki, fond bundan sonra da peşə təhsilinin inkişafına, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə və əmək bazarının tələblərinə uyğun innovativ layihələrin həyata keçirilməsinə dəstəyini davam etdirəcək.

“Veysəloğlu” şirkətlər qrupunda Korporativ kommunikasiyalar departamentinin rəhbəri Sənubər Nəzərova çıxışında bildirib ki, Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində yaradılan 642 kvadratmetrlik müasir qida emalı texnologiyaları tədris-istehsalat sahəsi tələbələrin nəzəri biliklərini praktiki bacarıqlarla möhkəmləndirməsinə imkan yaradacaq. O qeyd edib ki, sahə qida məhsullarının yuyulması, emalı, qurudulması və saxlanılması proseslərinin müasir avadanlıqlar vasitəsilə öyrədilməsi üçün qurulub və eyni vaxtda 20 tələbənin praktiki təlim keçməsi üçün nəzərdə tutulub.

Sonda iştirakçılar emalatxana və laboratoriyalarla tanış olub, qida məhsullarının emalı və qurudulması prosesini izləyiblər.

Tədbir çərçivəsində hazırlanmış məhsullar nümayiş etdirilib və iştirakçılara təqdim olunub, həmçinin Şəki-Zaqatala Regional Təhsil İdarəsinin Qəbələ rayonu üzrə təhsil sektorunun fəaliyyəti ilə tanışlıq olub.

Qeyd edək ki, 2025-2026-cı tədris ilində peşə təhsili müəssisələrinə 27 021 nəfər qəbul olunub. Artan tələbat nəzərə alınaraq, 2026-2027-ci tədris ili üzrə qəbul planı 33 120 yer müəyyən edilib.

# Peşə təhsilində rekord rəqabət

**Əmək bazarının dinamik dəyişən tələbləri, müasir texnologiyaların tətbiqi və iqtisadiyyatın müxtəlif sahələrində ixtisaslı kadrlara yaranan ehtiyac peşə təhsilini prioritet sahələrdən birinə çevirib. Son illər bu sahədə aparılan köklü islahatlar, təhsil mühitinin müasirləşdirilməsi və təlim prosesinin birbaşa iş dünyasının tələblərinə uyğunlaşdırılması dövlətin peşə təhsilinə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Artıq peşə təhsili müəssisələri vətəndaşların real bacarıqlara yiyələnərək qısa zamanda əmək bazarına inteqrasiya olunduğu mühüm mərkəzlərdir. Elə iyulun 23-də media nümayəndələri üçün təşkil edilən mətbuat konfransı da peşə təhsilindəki bu dinamikanın və qarşıda duran yeni hədəflərin təqdimatı ilə yadda qaldı. Peşə Təhsili üzrə Dövlət Agentliyinin rəhbərliyi tərəfindən yeni tədris ili üzrə tələbə qəbulunun start götürdüyü elan olundu. Konfransda peşə təhsilinin inkişaf xətti, əldə olunan nəticələr, iqtisadiyyatın yeni çağırışlarına cavab verən yeni ixtisasların açılması və müraciət edənlər üçün yaradılan imkanlar geniş müzakirə olundu.**




## *2026-2027-ci tədris ili üzrə tələbə qəbulu 149 ixtisas çərçivəsində aparılacaq*

### Peşə təhsilinə maraq artan dinamika ilə davam edir

Mətbuat konfransında çıxış edən Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru İlqar Bayramlı bildirib ki, 2026/2027-ci tədris ili üzrə tələbə qəbulu ölkə miqyasında 78 peşə təhsili müəssisəsində, ümumilikdə 149 ixtisas çərçivəsində aparılacaq. Bu il üçün ayrılan 33120 plan yerinin əsas payı - 27260 yeri 108 ixtisas üzrə texniki peşə təhsili səviyyəsinə aiddir. Qalan yerlər isə ilk peşə və yüksək texniki peşə təhsili arasında bölüşdürülüb. Agentlik rəhbərinin sözlərinə görə, mövcud dinamika və aparılan təhlillər göstərir ki, cari tədris ilində 28 mindən çox şəxsin peşə təhsili müəssisələrinə qəbul olunacağı gözlənilir.

### Dövlət sifarişli yerlərdə 52 faizlik artım qeydə alınıb

Ən diqqətçəkən məqamlardan biri dövlətin bu sahəyə ayırdığı birbaşa dəstəyin miqyasında özünü göstərir. Belə ki, ümumi qəbul planının 74 faizini, yəni 24 425 yeri məhz dövlət sifarişli yerlər təşkil edir. Dövlət sifarişli plan yerləri 2022-2023-cü tədris ilindəki 16040 yerlik göstəricisindən son 4 il ərzində 52 faiz artaraq indiki mərhələsinə çatıb. Ümumilikdə isə 2020-ci ildən etibarən peşə təhsilinə qəbul olanların sayında 90 faizə yaxın, yəni təxminən iki dəfəyə qədər davamlı yüksəliş qeydə alınıb.

### 1 yerə 45 müraciət

Brifinqdə açıqlanan ən maraqlı məqamlardan biri peşə təhsilində yaranan kəskin rəqabət və daxil olan müraciətlərin kütləviliyi ilə bağlı oldu. Ötən tədris ilində ayrılan 33 min plan yerinə ümumilikdə 47 minə yaxın müraciət daxil olub və qəbul planı 83 faiz icra edilərək 27 min şəxs tələbə adını qazanıb. Ən çox müraciət olunan ixtisaslar sırasında “Aşpazlıq” (7 079 müraciət), “Mühasibat uçotu” (6 097 müraciət) və “Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı” (5 932 müraciət) liderlik edir.

Müsabiqənin gərginliyinə görə isə ən yüksək göstərici “Kibertəhlükəsizlik” ixtisasına aiddir. Bu sahədə cəmi 1 plan yeri uğrunda təxminən 45 namizəd mübarizə aparıb. Yüksək rəqabət özünü keçid ballarında da göstərib. Yüksək texniki peşə səviyyəsində “Kibertəhlükəsizlik” üzrə orta keçid balı maksimum 200 baldan 136 bal, “Mühasibat uçotu” üzrə 105 bal, “Kompüter şəbəkələri şəbəkə inzibatçılığı” üzrə isə 104 bal təşkil edib. Attestat qiymətləri ilə qəbul aparılan texniki və ilk peşə səviyyələrində isə “Elektrik qatarının maşinisti” (3.67), “Sistem və şəbəkə xidməti üzrə texnik” (3.58) və “Beynəlxalq yük və sərnişin daşımaları üzrə operator” (3.5) ixtisasları ən yüksək orta balla seçilib.

### Yeni ixtisaslarla peşə təhsilinin məzmunu yenilənir

Cari tədris ilində əmək bazarının müasir çağırışlarına cavab olaraq 5 yeni ixtisas tədris olunacaq. Artıq namizədlər “Geodeziya və kartoqrafiya” (20 yer), “Satınalmaların təşkili” (80 yer), “Qida emalı texnologiyaları” (100 yer), “İstixana operatoru” (40 yer) və “Çörək ustası” (20 yer) sahələri üzrə də peşə təhsili ala biləcəklər.

Bununla yanaşı, təhsilin keyfiyyətini beynəlxalq standartlara qaldırmaq məqsədilə aparıcı akademiyalar və təhsil mərkəzləri ilə əməkdaşlıq çərçivəsində 7 ixtisas üzrə beynəlxalq sertifikat almaq imkanı yaradılıb. Bu imkan kibertəhlükəsizlik, interyer və qrafik dizayn, veb-proqramlaşdırma, İT dəstək, mühasibatlıq və qaynaqçılıq sahələrini əhatə edir.

### Azərbaycan-Türkiyə ortaq peşə modeli: Quba və Bakıda yeni müəssisələr açılacaq

İslahatların ən diqqətçəkən və strateji addımlarından biri isə Türkiyə ilə birgə həyata keçirilən beynəlxalq layihədir. İki ölkə arasında əməkdaşlıq çərçivəsində Bakı və Quba şəhərlərində iki yeni peşə təhsili müəssisəsinin yaradılması istiqamətində hazırlıq işləri aparılır.

İlkin mərhələdə bu müəssisələrdə əmək bazarında ən çox tələb olunan 5 ixtisas üzrə tələbə qəbulunun aparılması planlaşdırılır. Bu addım tələbələrə Türkiyənin zəngin peşə təhsili təcrübəsindən və qabaqcıl texnologiyalarından yararlanaraq beynəlxalq rəqabətə dözümlü kadr kimi yetişmək imkanı verəcək.

### İşəgötürənlərlə əməkdaşlıq genişlənir

Təhsillə istehsalatın inteqrasiyasını təmin edən dual peşə təhsili modeli də miqyasını genişləndirir. 150-dən çox işəgötürənlə tərəfdaşlıq çərçivəsində 22 regionda və 33 peşə müəssisəsində 57 ixtisas üzrə 2 560 tələbənin qəbulu nəzərdə tutulur. Son 3 ildə bu model üzrə tələbə sayının təxminən 3 dəfə (872-dən 2 560-a) artması layihənin uğurundan xəbər verir.

Dual təhsildə ən böyük say 560 plan yeri ilə “Aşpazlıq” ixtisasının payına düşür.

### Ən çox plan yeri məhz bu ixtisaslara ayrılıb

Qəbul planının ixtisaslar üzrə bölgüsü əmək bazarında hansı sahələrə daha çox ehtiyac duyulduğunu aydın göstərir. Ümumi planın 44 faizi (14 580 yer) məhz iqtisadiyyat, xidmət və informasiya texnologiyaları istiqamətlərinin payına düşür. Kənd təsərrüfatı, aviasiya, nəqliyyat, energetika və tikinti sahələri də prioritet istiqamətlər sırasındadır.

Diqqət çəkən başqa bir mühüm məqam isə təlim müddətinin optimal olmasıdır. Plan yerlərinin 67 faizini 6 aylıq və 1 illik qısamüddətli proqramlar təşkil edir. Bu da gənclərin uzun illər vaxt itirmədən, qısa müddətdə konkret peşə bacarıqlarına yiyələnərək birbaşa əmək bazarına addım atmasına şərait yaradır. Ümumilikdə isə təhsil proqramları 2, 3 və 4 illik müddətləri əhatə edir.

Ayrılan yerlərin sayına görə ixtisaslar arasında əsas pay aşpazlıq sənətinə düşür. Bu sahə üzrə 2 040 yer ayrılıb. Növbəti yerləri bərbər-vizajist-manikürçü və dərzi (hər biri 1 320 yer), elektrik montyoru və əməliyyatçı-mühasib (hər biri 1 140 yer) ixtisasları bölüşür. İstehsalat və xidmət sektorunun daxili tələbatına uyğun olaraq elektrik-qaz qaynaqçısı, kompüter təmiri üzrə texnik, qrafik dizayner, avtomobil çilingəri və bitkiçilik mütəxəssisi kimi ixtisaslar da top-10luqda yer alır.

Tələbə qəbulunun həcminə görə ön sırada gedən təhsil ocaqlarına gəldikdə, 1 520 plan yeri ilə Emal Sənayesi üzrə Bakı DPTM liderlik edir. Regionlar üzrə isə 1 240 yerlə Ticarət və Xidmət üzrə Gəncə DPTM ilk pillədə durur. Mədəniyyət və Sənətkarlıq üzrə Bakı DPTM, Sənaye və Texnologiyalar üzrə Gəncə DPTM, eləcə də Bərdə, Qəbələ, Lənkəran və Cəlilabad peşə təhsili müəssisələri də ən çox tələbə qəbul edəcək müəssisələr sırasındadır.

Peşə təhsilinin coğrafi əhatə dairəsindən danışan İlqar Bayramlı vurğulayıb ki, ixtisaslı kadr hazırlığı yalnız paytaxt Bakı ilə məhdudlaşmır, əksinə, əsas diqqət bölgələrə yönəldilib. Təsadüfi deyil ki, ümumi qəbul planının 66 faizi regionlarda yerləşən peşə təhsili müəssisələrinin, 34 faizi isə Bakı şəhərinin payına düşür. Bu nisbət regionlarda yerli iqtisadiyyatın və əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların yetişdirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

### İllik təhsil haqları 500 manatdan 6500 manatadək dəyişir

Peşə təhsilində dövlət sifarişli yerlərin böyük pay tutmasına baxmayaraq, ödənişli əsaslarla təhsil almaq istəyənlər üçün də kifayət qədər çevik və əlçatan imkanlar təqdim olunur. İllik təhsil haqları göstərir ki, peşə sahibi olmaq böyük maliyyə yükü tələb etmir.

Belə ki, seçilən ixtisasın səviyyəsindən asılı olaraq illik təhsil haqları dəyişir: ilk peşə təhsilində bu məbləğ 500-800 AZN, texniki peşə səviyyəsində 500-1 700 AZN, daha dərin bilik və bacarıqlar tələb edən yüksək texniki peşə proqramlarında isə 1 280-2 710 AZN təşkil edir. Əmək bazarında birbaşa beynəlxalq qapıları açan və xüsusi tərəfdaşlıqlarla həyata keçirilən sertifikat proqramlarının qiyməti isə 2500-6500 AZN aralığında müəyyənləşib.

### Peşə təhsilində qadınların payı 40 faizə çatıb

Digər sevindirici göstərici gender balansındakı müsbət dinamikadır. Belə ki, peşə təhsilinə müraciət edən qadınların payı 2022-ci ildəki 32 faizdən yüksələrək 2025-ci ildə 40 faizə (10 488 nəfər) çatıb. Qadınların müraciətində üstünlük təşkil etdiyi ixtisaslar sırasına dayəlik (100%), laborant-mikrobioloq (91.9%), moda dizaynı (91%), geyim dizaynı (90.5%), gözəllik xidmətləri (89.8%) və qənnadıçılıq (88.6%) daxildir.

### Müasir emalatxanalar və tələbə yataqxanaları: İnfrastruktur yenilənir

Müasir peşə təhsili həm də müasir təhsil mühiti ilə dəstəklənir. Son illərdə bu sahədə aparılan genişmiqyaslı tikinti və yenidənqurma işləri aydın görünür. Belə ki, 2022-2026-cı illəri əhatə edən dövrdə 4 peşə təhsili müəssisəsində əsaslı təmir və yenidənqurma işləri tam başa çatdırılıb. Hazırda daha 5 müəssisədə inşaat və bərpa prosesi sürətlə davam edir, 7 təhsil ocağı üzrə isə layihələndirmə işləri aparılır.

Praktiki bacarıqların keyfiyyətini artırmaq məqsədilə son üç ildə 46 yeni müasir emalatxana tələbələrin istifadəsinə verilib. Tələbələrin rahatlığını təmin etmək üçün isə 8 peşə təhsili müəssisəsinin nəzdində ümumilikdə 1000 yerlik müasir yataqxana şəraiti yaradılıb.

**Mərziyyə KAZIMZADƏ**

# QARABAĞ UNİVERSİTETİ: İNKİŞAFIN YENİ MƏRHƏLƏSİ

*(Əvvəli ötən sayımızda)*

**Beynəlxalq strateji akademik tərəfdaşlıqlar**

2025/2026-cı tədris ili Qarabağ Universitetinin beynəlxalq akademik şəbəkəsinin genişləndirilməsi ilə yadda qalmışdır. Universitetin Türk Universitetlər Birliyinə - TÜRKÜNİB-ə üzv qəbul olunması beynəlmiləlləşmə istiqamətində mühüm institusional addımdır.

İstanbul Texniki Universiteti ilə təhsil və elmi əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması mühəndislik təhsilinin inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Ankara Universiteti, Hacettepe Universiteti, Başkent Universiteti, Qazi Universiteti, İzmir Yüksək Texnologiya İnstitutu, Ankara Hacı Bayram Veli Universiteti və digər aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlığın yaradılması və inkişafı da bu istiqamətdə görülən ardıcıl işlərin tərkib hissəsidir. Qazaxıstanın Əl-Farabi adına Qazax Milli Universiteti ilə Əməkdaşlıq Memorandumunun imzalanması Mərkəzi Asiyanın qabaqcıl ali təhsil müəssisələri ilə əlaqələrin inkişafına yeni imkanlar yaratmışdır.

Qarabağ Universiteti Qazaxıstanın Almatı şəhərində Qazaxıstan və Azərbaycan ali təhsil müəssisələrinin II Rektorlar Forumunda və Azərbaycan ali təhsil müəssisələrinin “Study in Azerbaijan” beynəlxalq sərgisində təmsil olunmuşdur. Bundan əlavə, VII Türkoloji Yay Məktəbinə Qarabağ Universitetinin ev sahibliyi etməsi, müxtəlif ölkələrdən gənc alim və tanınmış mütəxəssislərin Xankəndidə bir araya gəlməsi universitetin Türk dünyasının akademik əməkdaşlığında artan rolunu göstərmişdir.

Universitetin beynəlxalq sammit, təhsil sərgisi, forum və digər qlobal platformalarda iştirakı onun beynəlxalq akademik məkanda tanıdılması baxımından mühüm əhəmiyyət daşımışdır.

**Təhsil, sənaye və əmək bazarı arasında yeni əməkdaşlıq imkanları**

Qarabağ Universitetində təhsilin real iqtisadiyyat və əmək bazarı ilə əlaqələndirilməsi inkişaf modelinin əsas istiqamətlərindəndir.

SOCAR ilə imzalanmış Əməkdaşlıq Müqaviləsi təhsil, tədqiqat, innovasiya və sənaye əməkdaşlığının inkişafı üçün strateji platforma yaratmışdır.

Azərbaycan Beynəlxalq Bankı ilə əməkdaşlıq çərçivəsində 100-dən artıq tələbənin bankın baş ofisi və müxtəlif filiallarında təcrübə keçməsi onların real iş mühiti ilə erkən mərhələdə tanışlığına imkan vermişdir.

Dövlət Vergi Xidməti ilə əməkdaşlıq nəticəsində 22 tələbə vergi orqanlarında könüllülük fəaliyyətinə cəlb olunmuşdur. Hüquqşünaslıq tələbələri üçün Milli Məclis, Ali Məhkəmə və Məhkəmə-Hüquq Şurasında təcrübə imkanları yaradılmışdır.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun “Zəfərdən Gələcəyə” Mentorluq Proqramı və Bakı Fond Birjası ilə əməkdaşlıq tələbələrin peşəkar inkişafı və qabaqcıl sahə təcrübəsi ilə erkən tanışlığı üçün mühüm imkanlar yaratmışdır. ARDNF-in proqramı çərçivəsində Biznes və iqtisadiyyat fakültəsinin 10 tələbəsi investisiya və maliyyə sahəsində təcrübəli mütəxəssislərdən mentorluq dəstəyi almaq imkanı qazanmışdır. BFB ilə imzalanmış Əməkdaşlıq Memorandumu çərçivəsində isə fakültənin 4 tələbəsi cari ilin iyul ayında təqaüd əsaslı təcrübə proqramına cəlb olunmuşdur.

**Tələbə nailiyyətləri: Xankəndidən milli və beynəlxalq platformalara**

Ötən tədris ili Qarabağ Universiteti tələbələrinin milli və beynəlxalq səviyyədə mühüm uğurları ilə yadda qalmışdır.

“Enactus Qarabağ” komandası universitetin ilk dəfə iştirak etdiyi Enactus Azərbaycan milli yarışında 24 universitet komandası arasında qalib olmuş və Tailandın Banqkok şəhərində keçirilən Enactus Dünya Kubokunda Azərbaycanı təmsil etmişdir.

Qarabağ Universitetinin komandası Türkiyədə keçirilən “Türk Dünyası PUA” (GÖKTÜRK) yarışında aerokosmik proqram təminatı və əlaqəli sistemlərin inteqrasiyasına əsaslanan layihə ilə üçüncü yerə layiq görülmüşdür.

“Vergilər” mövzusunda ümumrespublika olimpiadasında 29 ali təhsil müəssisəsindən 352 tələbə arasında Qarabağ Universitetinin tələbələri birinci və ikinci yerləri qazanmışdır.

Tələbələr Beynəlxalq STEAM Azərbaycan Festivalında, Beynəlxalq Astronavtika Konqresində və müxtəlif innovasiya platformalarında Universiteti layiqincə təmsil etmiş, bir sıra innovativ layihələr beynəlxalq forum və sərgilərdə maraqla qarşılanmışdır.

Hüquqşünaslıq tələbələri Baş Prokurorluğun hüquqi mövzuda məqalə müsabiqəsinin qalibi olmuş və “Azərbaycan Respublikasının Konstitusiyası və Dövlət Suverenliyi” hüquq viktorinasında uğur qazanmışdır.

Səkkiz tələbənin “Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı - 2025”in qalibi olması, beş tələbənin “Həmkarlar ittifaqı təqaüdü”nə layiq görülməsi də akademik və ictimai fəallığın mühüm göstəricilərindəndir.

Heydər Əliyev Sarayında Elm və Təhsil Nazirliyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunan ali təhsil müəssisələrinin tələbələri arasında bədii yaradıcılıq müsabiqə-festivalının yekun konsertində Qarabağ Universitetinin tələbələrinin təqdim etdiyi çıxışlar tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.



**Əldə olunan nəticələr 2026/2027-ci tədris ilinə daha böyük hədəflərlə qədəm qoymaq üçün möhkəm zəmin yaratmışdır. Bakalavriat səviyyəsi üzrə ixtisasların sayının 49-a çatdırılması və 1403 tələbənin qəbulu nəzərdə tutulur. Qəbul yalnız dövlət sifarişi əsasında və əyani təhsil forması üzrə həyata keçiriləcəkdir. Plan yerlərinin 758-i Azərbaycan, 645-i ingilis bölməsi üzrə müəyyən edilmişdir.**




Tələbələrimiz Qarabağ Universitetini Vaşinqtonda keçirilən Jessup Beynəlxalq Məhkəmə Müsabiqəsində (Philip C. Jessup International Law Moot Court Competition) və Vyanada keçirilən Vis Beynəlxalq Kommersiya Arbitrajı Müsabiqəsində (Willem C. Vis International Commercial Arbitration Moot) təmsil etmişdirlər.

**Tələbə mərkəzli yanaşma və zəngin universitet həyatı**

Qarabağ Universitetində tələbə yalnız təhsil prosesinin iştirakçısı deyil, universitet mühitinin və inkişaf prosesinin fəal tərəfdaşı kimi qəbul edilir. Bu yanaşma tələbələrlə müntəzəm görüşlər, açıq müzakirələr və qeyri-formal dialoq formatları vasitəsilə davam etdirilmişdir.

Fakültələr üzrə görüşlərdə akademik proses, tələbə həyatı, karyera inkişafı və universitetin strateji hədəfləri ətrafında fikir mübadiləsi aparılmış, Tələbə Gənclər Təşkilatının fəalları və müxtəlif fakültələrin nümayəndələrinin rəy və təklifləri dinlənilmişdir. Bu dialoq tələbələrin akademik və sosial mühitin formalaşdırılmasında daha fəal iştirakına şərait yaratmışdır.

Qarabağ Universitetinin tələbələri III MDB Oyunları, III Azərbaycan Milli Şəhərsalma Forumu, “Bakı-Xankəndi” beynəlxalq velosiped yarışı və digər mühüm tədbirlərdə könüllü kimi iştirak edərək Qarabağda keçirilən irimiqyaslı tədbirlərin təşkilinə töhfə vermişlər.

“Tələbə həyatının ritmi” sosial-mədəni proqramı, bayram tədbirləri, tələbə təşəbbüsləri və sosial layihələr zəngin, dinamik və yaradıcı tələbə mühitinin formalaşmasına xidmət etmişdir. Azərbaycan Velosiped İdmanı Federasiyasının Universitetə 100 velosiped hədiyyə etməsi tələbələr arasında sağlam və aktiv həyat tərzinin təşviqi üçün əlavə imkanlar yaratmışdır.

Tələbələrin elmi və yaradıcı potensialının üzə çıxarılması, tədqiqat fəaliyyətinə erkən mərhələdən cəlbi də tələbə mərkəzli yanaşmanın mühüm istiqamətidir. Pedaqoji fakültənin təşkilatçılığı ilə “Süni intellektlə təhsilin yenidən formalaşdırılması” mövzusunda “EDU-con 2026” I tələbə elmi konfransı və Mühəndislik fakültəsinin təşkilatçılığı ilə “Gələcəyin Mühəndisi” tələbələrin I Elmi-Texniki Konfransı keçirilmişdir. Bu platformalar tələbələrə araşdırma və innovativ ideyalarını təqdim etmək, akademik müzakirələrdə iştirak etmək və tədqiqat bacarıqlarını inkişaf etdirmək imkanı vermişdir.

Qarabağda ilk beynəlxalq BMT Modeli konfransının - QUMUN 2026-nın Xankəndidə keçirilməsi də əlamətdar hadisə olmuşdur. Elm və Təhsil Nazirliyinin qrant müsabiqəsi çərçivəsində “Gənclərin Beynəlxalq Dialoq Platforması” İctimai Birliyinin təşkilatçılığı, Qarabağ Universitetinin ev sahibliyi və Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının tərəfdaşlığı ilə keçirilən Konfrans 20-dən çox ölkədən 100-dən artıq nümayəndəni bir araya gətirmişdir. BMT Təhlükəsizlik Şurası, UNESCO, İqtisadi və Sosial Şura və Beynəlxalq Ədalət Məhkəməsinin fəaliyyətini modelləşdirən simulyasiya sessiyalarında sülh quruculuğu, dayanıqlı inkişaf, urbanizasiya, yaşıl texnologiyalar və süni intellekt kimi qlobal məsələlər müzakirə olunmuşdur.

Beləliklə, 2025/2026-cı tədris ilində tələbə həyatı akademik təhsillə məhdudlaşmamış, elmi-tədqiqat, ictimai fəallıq, könüllülük, beynəlxalq dialoq, yaradıcılıq və sağlam həyat tərzini birləşdirən çoxşaxəli inkişaf mühiti kimi formalaşmışdır.

**Qarabağın elmi, mədəni və ictimai həyatında fəal rol**

2025/2026-cı tədris ilində Qarabağ Universiteti Xankəndinin və bütövlükdə Qarabağ regionunun elmi, mədəni və ictimai həyatının fəal iştirakçısına çevrilmişdir.

Universitetin ictimai və milli əhəmiyyətli mövzular ətrafında müzakirə platforması kimi rolu genişlənmişdir. Yeni Azərbaycan Partiyası və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş “Böyük Qayıdış: Heydər Əliyev ideyalarının təntənəsi” mövzusunda tədbirin keçirilməsi Ulu Öndərin zəngin irsinin gənc nəslə çatdırılması baxımından xüsusi əhəmiyyət daşımışdır.

İncəsənət fakültəsinin təşkilatçılığı ilə Milli Musiqi Günü və Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunmuş konsertlər, sərgilər və ustad dərsləri keçirilmişdir. Fakültənin tələbə və əməkdaşlarının Xarıbülbül Beynəlxalq Musiqi Festivalında Cıdır düzündə konsert proqramı ilə çıxışı Universitetin Qarabağın mədəni həyatında artan rolunun göstəricisi olmuşdur. “Birinci Qarabağ Səs Konqresi” isə təhsil, tibb və incəsənətin kəsişməsində yeni elmi-yaradıcı platformanın əsasını qoymuşdur.

Qarabağ Universitetinin Pedaqoji fakültəsinin təşkilatçılığı ilə I Qarabağ Təhsil Forumu keçirilmişdir. Forumun əsas məqsədi təhsilimizin əsas perspektivlərini, gələcəyin vətəndaşını yetişdirmək uğrunda orta və ali məktəblərin bir-birinə inteqrasiyası məsələlərini müzakirə etmək olmuşdur. Bununla yanaşı, “Dəqiq kənd təsərrüfatında süni intellektin tətbiqi” mövzusunda “bootcamp”, məhkəmə sisteminin inkişafına dair elmi konfrans, Türkoloji Yay Məktəbi və digər tədbirlər Xankəndidə yeni akademik müzakirə mühitinin formalaşmasına xidmət etmişdir.

Qarabağ Universitetinin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində təşkil olunan “Urban Expo” sərgisində öz pavilyonu ilə təmsil olunması və beynəlxalq şəhərsalma platformalarında iştirakı universitetin Qarabağda davamlı şəhər və insan kapitalı ekosisteminin qurulmasındakı rolunu beynəlxalq auditoriyaya təqdim etməyə imkan vermişdir.

**Müasir infrastruktur, rəqəmsallaşma və yeni universitet mühiti**

Universitetin sürətli akademik inkişafı müasir infrastrukturun yaradılması və tədris prosesinin ardıcıl rəqəmsallaşdırılması ilə paralel aparılmışdır. Hesabat dövründə Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusu və Qarabağ Universitetinin Klinikası istifadəyə verilmiş, Biznes və iqtisadiyyat fakültəsi yeni tikilmiş binada fəaliyyətə başlamış, Mühəndislik fakültəsinin yeni tədris binasının təməli qoyulmuşdur. Müasir auditoriyalar, laboratoriyalar, kitabxana, tələbə yaşayış imkanları, simulyasiya və klinik bacarıq məkanları yeni nəsil təhsil mühitinin infrastruktur əsaslarını formalaşdırır.

Bununla yanaşı, Qarabağ Universitetində rəqəmsallaşma yalnız texnoloji yeniliklərin tətbiqi deyil, tədris və idarəetmə fəlsəfəsinin mühüm tərkib hissəsi kimi həyata keçirilir. Əsas məqsəd akademik və inzibati proseslərdə çevikliyi, şəffaflığı və əlçatanlığı təmin edən, məlumatların vahid sistemdə toplanmasına və qərarların data əsasında qəbuluna imkan verən müasir universitet ekosistemi formalaşdırmaqdır.

Bu məqsədlə, 2025/2026-cı tədris ilindən “Blackboard Learning Management System” (LMS) platformasının tətbiqinə başlanılmışdır. Tədris prosesinin rəqəmsal mühitdə vahid sistem üzərindən idarə edilməsinə imkan verən platforma vasitəsilə tələbələr dərs materiallarına çıxış əldə edir, tapşırıqları onlayn təqdim edir və akademik nəticələrini operativ izləyirlər. Müəllimlər üçün isə tədrisin sistemli idarə olunması, qiymətləndirmənin çevik və şəffaf təşkili, tələbələrlə interaktiv ünsiyyət və akademik prosesin dinamikasının izlənilməsi imkanları yaradılmışdır. Platformanın səmərəli tətbiqi məqsədilə ADA Universitetinin dəstəyi ilə müəllim heyəti üçün xüsusi təlimlər təşkil edilmişdir.

Elektron sənəd dövriyyəsi sisteminin istifadəyə verilməsi və kitabxanada KOHA sisteminin tətbiqi istiqamətində görülən işlər də vahid rəqəmsal universitet mühitinin formalaşdırılmasına xidmət edir. Universitetin yeni rəsmi veb-saytının istifadəyə verilməsi isə rəqəmsal kommunikasiya, məlumatların əlçatanlığı və institusional görünürlük baxımından mühüm addım olmuşdur. Dünyanın nüfuzlu universitetlərinin istifadə etdiyi “Drupal” platformasında qurulan sayt bu texnologiya əsasında hazırlanmış ilk yerli universitet veb-saytı kimi təqdim edilmişdir.

**İnkişafın yeni mərhələsinə doğru**

2025/2026-cı tədris ilinin nəticələri göstərir ki, Qarabağ Universiteti artıq yalnız təhsil verən ali təhsil müəssisəsi deyil. Universitet Xankəndidə həyatın canlanmasının, Qarabağda yeni insan kapitalının formalaşdırılmasının, elmi və mədəni mühitin inkişafının əsas mərkəzlərindən birinə çevrilməkdədir.

Tələbə və əməkdaşların Qarabağda keçirilən beynəlxalq, elmi, mədəni və ictimai tədbirlərdə fəal iştirakı, dünyanın müxtəlif ölkələrindən alim və gənclərin Xankəndidə bir araya gəlməsi, yeni akademik və sənaye tərəfdaşlıqlarının qurulması burada özünəməxsus universitet şəhəri mühitinin formalaşdığını göstərir.

İlk beynəlxalq proqram akkreditasiyasının əldə edilməsi, ilk elmi jurnal və monoqrafiyanın nəşri, tələbələrin milli və beynəlxalq yarışlardakı uğurları, yeni tibbi təhsil və klinik ekosistemin yaradılması, nüfuzlu universitetlərlə strateji əməkdaşlığın genişləndirilməsi və müasir infrastrukturun qurulması tədris ilinin əsas nailiyyətləridir.

Əldə olunan nəticələr 2026/2027-ci tədris ilinə daha böyük hədəflərlə qədəm qoymaq üçün möhkəm zəmin yaratmışdır. Bakalavriat səviyyəsi üzrə ixtisasların sayının 49-a çatdırılması və 1403 tələbənin qəbulu nəzərdə tutulur. Qəbul yalnız dövlət sifarişi əsasında və əyani təhsil forması üzrə həyata keçiriləcəkdir. Plan yerlərinin 758-i Azərbaycan, 645-i ingilis bölməsi üzrə müəyyən edilmişdir. İngilis dilində tədris imkanlarının genişləndirilməsi universitetin beynəlmiləlləşmə strategiyasının və qlobal akademik məkana inteqrasiya hədəfinin mühüm istiqamətidir.

Yeni tədris ilinin ən mühüm strateji yeniliklərindən biri Türkiyənin nüfuzlu İstanbul Texniki Universiteti ilə birgə 4 mühəndislik ixtisası üzrə beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsi olacaqdır. Dünyanın qabaqcıl texniki universitetlərindən biri ilə reallaşdırılacaq proqramlar Qarabağ Universitetində mühəndislik təhsilinin beynəlxalq standartlar əsasında inkişafı, qabaqcıl akademik təcrübənin mənimsənilməsi və qlobal əmək bazarında rəqabətədavamlı mütəxəssislərin hazırlanması baxımından yeni mərhələnin başlanğıcıdır.

Beləliklə, qısa müddətdə əldə edilmiş nəticələr Qarabağ Universitetində tələbəmərkəzli, tədqiqat əsaslı və innovasiya yönümlü universitet modelinin ardıcıl formalaşdırıldığını göstərir. Qarşıda daha böyük hədəflər və yeni inkişaf mərhələsi dayanır. Əsas məqsəd dəyişməzdir: Qarabağın dirçəlişinə, Azərbaycanın ali təhsil və elm ekosisteminin inkişafına, ölkəmizin gələcəyi üçün yüksək ixtisaslı, müasir kompetensiyalara malik və milli dəyərlərə bağlı insan kapitalının hazırlanmasına davamlı töhfə vermək. Bu istiqamətdə dövlətimizin yüksək diqqət və qayğısı, tərəfdaşlarımızın dəstəyi, professor-müəllim heyətimizin peşəkarlığı, tələbələrimizin istedadı və əməkdaşlarımızın fədakar əməyi ən böyük güc mənbəyimizdir.

**Şahin BAYRAMOV,**
**Qarabağ Universitetinin rektoru**

# Məktəbəqədər təhsilin əlçatanlığı artırılır, dövlət və özəl sektor əməkdaşlığı gücləndirilir

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 iyul 2026-cı il tarixli 218 nömrəli Qərarı ilə "Məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi Qaydaları" təsdiq edilib. Yeni maliyyələşmə modeli məktəbəqədər təhsilin əlçatanlığının artırılmasına, dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Model çərçivəsində valideynlərə uşaqları üçün geniş seçim imkanı yaradılır və daha çox uşağın keyfiyyətli məktəbəqədər təhsilə cəlb olunması hədəflənir.**



## Valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan yeni maliyyələşmə modeli tətbiq olunacaq

Qaydalara əsasən, Elm və Təhsil Nazirliyi tərəfindən hər il müsabiqə keçiriləcək. Müsabiqədə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən məktəbəqədər təhsil fəaliyyətinə lisenziya verilmiş özəl təhsil müəssisələri iştirak edə biləcəklər. Müraciət edən müəssisələr müəyyən edilmiş meyarlar əsasında qiymətləndiriləcək, qaliblər müəyyənləşdiriləcək və seçilmiş özəl məktəbəqədər təhsil müəssisələri ilə maliyyələşdirmə müqavilələri bağlanacaq. Dövlət dəstəyi həmin müqavilələr çərçivəsində maliyyələşdirilməsi nəzərdə tutulmuş yerlərə qəbul edilən təhsilalanlara şamil olunacaq.

Belə ki, hər bir təhsilalana göstərilən təhsil xidmətlərinə görə dövlət dəstəyi təhsil haqqının 70 faizi həcmində, lakin Bakı şəhəri üzrə aylıq 350 manatadək, digər şəhər və rayonlar üzrə isə aylıq 250 manatadək müəyyən edilib. Təhsil haqqının dövlət tərəfindən qarşılanmayan hissəsi valideyn tərəfindən ödəniləcək.

Müsabiqənin elan olunacağı tarix, müraciət qaydası, qiymətləndirmə meyarları və digər zəruri məlumatlar barədə ictimaiyyətə Elm və Təhsil Nazirliyi tərəfindən əlavə məlumat veriləcək.

Qeyd edək ki, son illərdə məktəbəqədər təhsil sahəsində həyata keçirilən ardıcıl islahatlar çərçivəsində yeni dövlət məktəbəqədər təhsil müəssisələri yaradılıb, mövcud müəssisələrin maddi-texniki bazası gücləndirilib, məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsi məqsədilə alternativ xidmət modelləri tətbiq olunub.

Bu istiqamətdə həyata keçirilən mühüm təşəbbüslərdən biri olan icma əsaslı məktəbəqədər təhsil modeli məktəbəqədər təhsil müəssisələrinin olmadığı və ya əlçatanlığın məhdud olduğu yaşayış məntəqələrində minlərlə uşağın erkən təhsilə cəlb edilməsinə və məktəbəqədər təhsilin əhatəliliyinin artırılmasına mühüm töhfə verib.

Bununla yanaşı, 2024-cü və 2025-ci illərdə Elm və Təhsil Nazirliyi tərəfindən özəl məktəbəqədər təhsil müəssisələri üçün keçirilmiş qrant müsabiqələri nəticəsində minlərlə uşağın dövlət dəstəyi hesabına özəl məktəbəqədər təhsil müəssisələrində təhsil alması təmin edilib. Həmin müsabiqələr özəl sektorun məktəbəqədər təhsil xidmətlərinin göstərilməsində iştirakını genişləndirməklə yanaşı, dövlət və özəl sektor arasında əməkdaşlığın yeni mexanizmlərinin formalaşdırılması baxımından da uğurlu təcrübə yaradıb.

Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş yeni maliyyələşmə modeli məhz bu uğurlu təcrübələrin davamı olaraq dövlət dəstəyinin daha sistemli, şəffaf və davamlı mexanizm əsasında həyata keçirilməsini təmin edəcək, özəl məktəbəqədər təhsil müəssisələrinin potensialından daha səmərəli istifadə olunmasına, valideynlərin seçim imkanlarının genişlənməsinə və məktəbəqədər təhsilin əhatəliliyinin artırılmasına xidmət edəcək.

# Akkreditasiya Şurası ali təhsil müəssisələri və təhsil proqramları üzrə qərarlar qəbul edib

**Akkreditasiya Şurasının növbəti iclası keçirilib. İclasda Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "2024-cü və 2025-ci təqvim ilində ali təhsil müəssisələrinin akkreditasiyasının keçirilməsi Qrafiki"nə uyğun olaraq, 7 ali təhsil müəssisəsində aparılmış institusional akkreditasiya və 16 ali təhsil müəssisəsində "İbtidai sinif müəllimliyi" və "Məktəbəqədər təhsil" ixtisasları üzrə proqram akkreditasiyasının nəticələri müzakirə olunub.**

Qəbul edilmiş qərarlara əsasən, Naxçıvan Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət Aqrar Universiteti və Mingəçevir Dövlət Universiteti növbəti 5 il, Sumqayıt Dövlət Universiteti və Gəncə Dövlət Universiteti isə növbəti 3 il müddətinə institusional akkreditasiya olunmuş hesab edilib.

Bakı Qızlar Universiteti üzrə institusional akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi "uyğun deyil" olaraq qiymətləndirilib və Nazirlər Kabinetinin 28 sentyabr 2010-cu il tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na uyğun müvafiq tədbirlərin görülməsi barədə qərar qəbul olunub.

Proqram akkreditasiyası üzrə "İbtidai sinif müəllimliyi" ixtisasında 6 proqram 5 il, 3 proqram 3 il müddətinə akkreditasiya olunub, 4 proqram üzrə isə çatışmazlıqların aradan qaldırılması məqsədilə 2 ildən sonra təkrar akkreditasiya aparılması qərara alınıb. Bakı Qızlar Universitetinin həmin proqramı akkreditasiya olunmuş hesab edilməyib.

"Məktəbəqədər təhsil" ixtisası üzrə isə 10 proqram 5 il müddətinə akkreditasiya olunub, 3 proqram üzrə 2 ildən sonra təkrar akkreditasiya keçirilməsi qərara alınıb. Bakı Qızlar Universitetinin bu proqramı da "uyğun deyil" nəticəsi ilə akkreditasiya olunmuş hesab edilməyib.

Qeyd edək ki, Akkreditasiya Şurasının qərarlarından sonra akkreditasiya olunmuş ali təhsil müəssisələri və təhsil proqramları üzrə müəyyən edilmiş tövsiyə və göstərişlərin icrasını təmin etmək məqsədilə fəaliyyət planları hazırlanacaq və Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə razılaşdırılacaq.

Akkreditasiya prosesi ali təhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılmasına, dövlət təhsil standartlarına uyğunluğun təmin edilməsinə və ali təhsil sistemində davamlı inkişafın dəstəklənməsinə xidmət edir.

# 5 mindən çox müraciətçidən 53-ü "Maarifçi" oldu



## Yeni iştirakçılarla görüş keçirildi

**"IV "Maarifçi" ilə sayımız 150-ni keçdi. Onlardan 40 nəfərdən çoxu Elm və Təhsil Nazirliyi sistemində çalışır".**

**Bunu Elm və Təhsil Nazirliyinin Aparat rəhbəri Mətin Kərimli nazirliyin təşəbbüsü və Təhsilin İnkişafı Fondunun dəstəyi ilə həyata keçirilən IV "Maarifçi" tələbə-məzun proqramının müsahibə mərhələsini uğurla başa vuran iştirakçılarla görüşündə deyib.**

**Gəncləri salamlayan Mətin Kərimli proqramın məqsədi, əhatə dairəsi və iştirakçılar üçün yaratdığı imkanlar barədə məlumat verib. O bildirib ki, "Maarifçi" proqramı gənclərin peşəkar inkişafına dəstək olmaqla yanaşı, onların dövlət idarəçiliyi sahəsində praktik bilik və bacarıqlar qazanmasına, nəzəri biliklərini real iş mühitində tətbiq etməsinə şərait yaradır. Aparat rəhbəri vurğulayıb ki, proqram müddətində əldə ediləcək təcrübə iştirakçıların gələcək karyerasının formalaşmasında mühüm rol oynayacaq. Yeni iştirakçıları təşəbbüskar olmağa, öyrənməkdən və inkişaf etməkdən çəkinməməyə çağıran Mətin Kərimli onları "Maarifçi" Tələbə-Məzun proqramından maksimum istifadə etməyi tövsiyə edib: "Proqramdan sonra harada işləyəcəyinizdən asılı olmayaraq, əmin olun ki, burada qurduğunuz əlaqə və təcrübələr çox əhəmiyyətli olacaq. "Maarifçi" öyrənmə prosesidir. Öyrənmə prosesi qarşılıqlıdır, həm öyrədən, həm də öyrənən bu prosesdə fəal olmalıdır. Hər birimiz bu prosesdən öyrənirik. Ona görə də maksimum dərəcədə öyrənməyə çalışın". Öyrənməyin ən yaxşı üsullarından birinin soruşmaq olduğunu vurğulayan Aparat rəhbəri iştirakçıları sual verməyə çağırıb: "Sual verməkdən çəkinməyin, təkliflər verin. Onda siz daha yaxşı öyrənəcəksiniz. Fəaliyyətimizlə bağlı, iş prosesi ilə bağlı soruşun, ictimaiyyət arasında hansısa stereotiplər varsa, onları çəkinmədən həmkarlarınızdan soruşa bilərsiniz. Sizi maraqlandıran məsələlərlə bağlı soruşun. Soruşun ki, öyrənə biləsiniz".**

**İştirakçılara proqramın bir yarış olmadığını xatırladıb:**

**""Maarifçi" bir yarış deyil. 53 nəfər iştirakçısınız və siz bir-birinizlə yarışmırsınız. Bu, sizin öz-özünüzlə yarışınızdır. Bu, "Peşəkar keyfiyyətlərimi necə inkişaf etdirə bilərəm, daha yaxşı necə öyrənə bilərəm?" deyə daxili yarışınız ola bilər".**

### "Maarifçi" proqramına rekord sayda müraciət olub

Görüşdə Elm və Təhsil Nazirliyinin əməkdaşı, proqramın işçi qrupunun katibi Tünzalə Vəliyeva təqdimatla çıxış edib. Onun sözlərinə görə, IV "Maarifçi" tələbə-məzun proqramına rekord sayda — 5 mindən çox müraciət olub.

Bunun IV "Maarifçi" tələbə-məzun proqramına gənclərin böyük marağının göstəricisi olduğunu qeyd edən T.Vəliyeva seçim prosesinin çoxmərhələli qiymətləndirmə əsasında həyata keçirildiyini bildirib. Onun sözlərinə görə, qeydiyyatdan keçən 5096 nəfərdən 3721 nəfər test imtahanına dəvət olunub.

Test mərhələsini uğurla başa vuran 881 nəfər müsahibəyə çağırılıb, sonda isə nazirliyin müxtəlif struktur bölmələrinin ekspertlərinin qiymətləndirməsi əsasında 53 namizəd proqram iştirakçısı seçilərək "Maarifçi" adını qazanıb: "Seçim prosesi 6 müsahibə komissiyası tərəfindən həyata keçirilib. Müsahibələrdə 86 əməkdaş iştirak edib və seçim prosesinə ümumilikdə 756 saat vaxt sərf olunub".

### İştirakçılar ən çox məktəbəqədər və ümumi təhsil sistemində təcrübə keçirlər

Tünzalə Vəliyeva qeyd edib ki, "Maarifçi" iştirakçılara təhsil sisteminin müxtəlif istiqamətlərində praktiki təcrübə qazanmaq imkanı yaradır. Belə ki, təhsilin idarə olunmasından rəqəmsal transformasiya, hüquq, maliyyə və layihələrin idarə edilməsinədək müxtəlif istiqamətlərdə praktiki təcrübə qazanaraq təhsil sisteminin müxtəlif sahələrinin fəaliyyəti ilə yaxından tanış olurlar.

T.Vəliyeva "Maarifçi" proqramı iştirakçılarının təcrübə keçdiyi struktur bölmə və qurumlar, eləcə də fəaliyyət istiqamətləri üzrə də ətraflı məlumat verib. Onun sözlərinə görə, iştirakçılar Elm və Təhsil Nazirliyinin müxtəlif struktur bölmələri, tabeli qurumlar və regional təhsil idarələrində praktiki fəaliyyətə cəlb olunublar. 10 nəfər Elm və Təhsil Nazirliyində, 7 nəfər Elm və Ali Təhsil üzrə Dövlət Agentliyində fəaliyyət göstərəcək.

Ən çox iştirakçı məktəbəqədər və ümumi təhsil sahəsindədir. Belə ki, 4 nəfər Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyində, 20 nəfər isə ayrı-ayrı regional təhsil idarəsində təcrübəyə başlayıb. Onların arasında Abşeron-Xızı, Dağlıq Şirvan, Lənkəran-Astara, Qazax-Tovuz, Şəki-Zaqatala, Şərqi Zəngəzur regional təhsil idarələri var.

Bundan başqa, hər birində 1 nəfər olmaqla Əsaslı Tikinti və Təchizat İdarəsi, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi, Təhsil Tələbə Krediti Fondu və Təhsilin İnkişafı Fondunda da "Maarifçi"lər təcrübə proqramına cəlb olunublar.

### Proqram iştirakçılarının əksəriyyəti təhsilin təşkili və idarə olunması sahəsindəki fəaliyyəti öyrənəcək

İştirakçıların fəaliyyət istiqamətləri üzrə bölgüsünə gəlincə, proqram iştirakçılarının əksəriyyəti, yəni 17 nəfər təhsilin təşkili və idarə olunması sahəsinə cəlb olunub.

İnzibati idarəetmə sahəsində 9, hüquq və iqtisadiyyat-maliyyə istiqamətlərinin hər biri üzrə 7 nəfər təcrübə keçir.

Bundan başqa, data analitika və rəqəmsal idarəetmə və IT layihələri sahələrinin hər birində 4, beynəlxalq münasibətlər və layihələrin idarə olunması istiqamətlərinin hər birində 2 nəfər, tikinti və memarlıq sahəsində isə 1 nəfər proqram çərçivəsində praktik bilik və bacarıqlar əldə edir.

T.Vəliyeva "Maarifçi"lərin təhsil səviyyəsinə dair göstəricilərini də təqdim edib. Belə ki, seçilənlərdən 31 nəfər bakalavriat, 22 nəfər isə magistratura məzunudur. Onlar ali təhsil müəssisələrinə yüksək balla qəbul olunublar.

T.Vəliyevanın açıqladığı rəqəmlərdən belə görünür ki, iştirakçıların 22 nəfəri ali məktəbə 500—600, 16 nəfəri 400—500, 9 nəfəri isə 600-dən yuxarı balla qəbul olunub.

İştirakçılar arasında Bakı Dövlət Universitetinin (BDU) məzunları üstünlük təşkil edirlər. Proqram iştirakçılarından 14 nəfər BDU məzunudur. Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Dövlət İdarəçilik Akademiyası (DİA) və UNEC-in hər birindən 5, Azərbaycan Dövlət Neft və Sənaye Universitetindən (ADNSU) 4 nəfər seçilib. Bakı Mühəndislik Universiteti (BMU), Dövlət Gömrük Komitəsi Akademiyası (DGKA), Gəncə Dövlət Universiteti (GDU), Mingəçevir Dövlət Universiteti (MDU) və Naxçıvan Dövlət Universitetindən (NDU) hər birindən 2 nəfər, ADA Universiteti, AMİ, BANM, BDU-nun Qazax filialı, BSU, LDU və Xəzər Universitetindən isə hər birindən 1 nəfər proqram iştirakçısı olub.

Görüşdə çıxış edən Elm və Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov gənclərə tövsiyə edib ki, mütləq ali məqsədləri olsun: "Bu ölkəni inkişaf etdirəcək gənclər sizsiniz. Hər hansı fəaliyyət sahəsində məşğul olmaq yox, o sahənin zirvəsinə qalxmalısınız".

### İştirakçılar bu proqramın bir parçası olduqlarından məmnundurlar

Bəziləri onlayn olmaqla 53 "Maarifçi"nin hamısı görüşə qatılmışdı. Proqramda təmsil olunmaqdan məmnunluqlarını ifadə edən gənclər tövsiyələrə əməl edərək 4 aylıq fürsətdən yararlanacaqlarını deyiblər.

Xatırladaq ki, "Maarifçi" tələbə-məzun proqramı 2024-cü ildən təşkil olunur və indiyə kimi 102 nəfər bu proqramın iştirakçısı olub. Proqramın 52 məzunu Elm və Təhsil Nazirliyinin müxtəlif struktur bölmələrində əmək fəaliyyətinə cəlb olunub.

**Ruhiyyə DAŞSALAHLI**

# OMBUDSMAN: "Uşaqların adına saxta hesabların yaradılması ilə bağlı müraciatlər daxil olur"

**Uşaqlar cəmiyyətin gələcəyidir. Onların hüquqlarının etibarlı şəkildə qorunması isə yalnız hüquqi öhdəlik deyil, həm də dövlətin sosial siyasətinin əsas göstəricilərindən biridir. Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi, yeni imkanlarla yanaşı, yeni risklərin də yarandığı müasir dövrdə uşaq hüquqlarının müdafiəsi xüsusilə aktuallaşıb. Kiberbullinq, şəxsi məlumatların yayılması, zərərli rəqəmsal məzmun, süni intellektin diqtə etdiyi yeni çağırışlar və uşaqlara qarşı zorakılığın müxtəlif formaları bu sahədə çevik və effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasını zəruri edir. Azərbaycan 21 iyul 1992-ci ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmaqla hər bir uşağın hüquqlarının təmin olunması istiqamətində beynəlxalq öhdəliklər götürüb. Bəs bu gün Azərbaycanda uşaq hüquqlarının müdafiəsi sahəsində vəziyyət necədir? Ombudsman təsisatı bununla bağlı nə kimi işlər görür? Uşaqların rəqəmsal təhlükəsizliyi ilə bağlı hansı problemlərlə üzləşir və qarşıdakı dövr üçün hədəfləri necə müəyyənləşdirib? Bu və digər məsələlərlə bağlı Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva “Azərbaycan müəllimi”nə müsahibə verib.**



## “Rəqəmsal texnologiyaların geniş tətbiqi uşaqların inkişafı, bilik və məlumat əldə etməsi baxımından mühüm imkanlar yaratsa da, eyni zamanda onları müxtəlif risk və təhlükələrlə üz-üzə qoyur”

### “Uşaq hüquqlarının müdafiəsi ilə bağlı çoxşaxəli fəaliyyət həyata keçirilir”

*– Səbinə xanım, uşaq hüquqlarının müdafiəsi Ombudsman təsisatının fəaliyyətində necə əks olunur və bu sahədə son illər hansı mühüm nəticələr əldə edilib?*

– Uşaq hüquqlarının müdafiəsi Ombudsman təsisatının fəaliyyətinin əsas istiqamətlərindən biridir. Bu sahədə ombudsman tərəfindən çoxşaxəli fəaliyyət həyata keçirilir. Buraya uşaq hüquqlarının pozulması ilə bağlı müraciətlərin araşdırılması, monitorinqlərin keçirilməsi, analitik təhlillərin aparılması, qanunvericiliyin və hüquq tətbiqi təcrübəsinin təkmilləşdirilməsi ilə bağlı təkliflərin hazırlanması, maarifləndirmə tədbirlərinin təşkili və digər istiqamətlər daxildir.

Fəaliyyət zamanı aidiyyəti dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, beynəlxalq təşkilatlar, xarici ölkələrin insan hüquqları təsisatları və digər qurumlarla əməkdaşlıq edilir, eyni zamanda uşaqların iştirakı təmin olunur.

Son illərdə uşaq hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyə edilmiş dəyişikliklər nəticəsində ombudsmanın səlahiyyətlərinin genişləndirilməsi təsisatın fəaliyyətinin daha da gücləndirilməsinə töhfə verib. Bu isə öz növbəsində uşaqların hüquqlarının qorunmasına və onların hüquqlarının təmin olunmasına nəzarətin daha effektiv həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Ümumilikdə, son illər uşaq hüquqları sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi, yeni normativ hüquqi aktların qəbul edilməsi uşaqların təhlükəsizliyinin təmin olunmasına xidmət edir.Uşaq hüquqlarının etibarlı müdafiəsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.Həyata keçirilən qanunvericilik islahatları erkən evliliklərin qarşısının alınması, valideyn məsuliyyətinin artırılması, uşaqlarla bağlı ədalət mühakiməsi zamanı onların üstün mənafelərinin nəzərə alınması, onlara qarşı zorakılıqla mübarizənin gücləndirilməsi, çətin həyat şəraitinə düşməsinin qarşısının alınması və sosial müdafiəsinin təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Ombudsman tərəfindən qanunvericiliyin təhlili mütəmadi aparılır, bu istiqamətdə hazırlanmış təkliflər aidiyyəti dövlət qurumlarına təqdim edilir və onların icrası nəzarətdə saxlanılır.

Məmnunluqla qeyd etmək istərdim ki, qəbul edilmiş bir sıra qanunvericilik aktlarında ombudsmanın irəli sürdüyü təkliflər nəzərə alınıb.

Cari ilin 3 mart tarixində “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununun və digər əlaqəli normativ hüquqi aktların qəbul edilməsi bu sahədə yaranan yeni ictimai münasibətlərin hüquqi tənzimlənməsi və uşaqların hüquqlarının daha səmərəli müdafiəsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Bununla yanaşı, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununda ombudsmanın BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasının həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirməsi ilə bağlı səlahiyyətləri də təsbit olunub. Eyni zamanda, ombudsmanın təklifi əsasında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na 2026-cı ildə ombudsmanın, habelə digər aidiyyəti qurumların uşaq hüquqlarının müdafiəsi sahəsində səlahiyyətləri əlavə edilib.

Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasəti, aparılan islahatlar və reallaşdırılan təşəbbüslər nəticəsində əldə olunan mühüm nailiyyətlər uşaqların rifahının və layiqli həyat səviyyəsinin təmin edilməsinə mühüm töhfə verir.

### “Valideynlərin və uşaqların rəqəmsal təhlükəsizlik sahəsində bilik və bacarıqları artırılır”

*– Ombudsman Aparatına daxil olan müraciətlərə əsasən uşaqların rəqəmsal mühitdə üzləşdiyi əsas risklər nələrdir və bu sahədə hansı preventiv tədbirlərin görülməsi vacibdir?*

– Ombudsman Aparatına uşaqların adına saxta hesabların yaradılması, onlara məxsus şəxsi məlumatların, foto və videoların ələ keçirilərək həmin hesablar vasitəsilə sosial şəbəkələrdə paylaşılması, uşaqların şərəf və ləyaqətinin alçaldılması, eləcə də sosial şəbəkələrdə tanış olduqları şəxslər tərəfindən təhdid və təqib edilmələri ilə bağlı müraciətlər daxil olur. Həmin müraciətlər hərtərəfli araşdırılır, aidiyyəti dövlət qurumlarına sorğular göndərilir və zəruri tədbirlər görülür.

Ümumilikdə, bu sahədə mövcud risklərin qarşısının alınması üçün maarifləndirmə tədbirlərinin genişləndirilməsi, valideynlərin və uşaqların rəqəmsal təhlükəsizlik sahəsində bilik və bacarıqlarının artırılması mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, sosial şəbəkələrdə yaş məhdudiyyətlərinin müəyyən edilməsi, provayderlərin fəaliyyətinin hüquqi baxımdan daha səmərəli tənzimlənməsi və müvafiq sanksiyaların tətbiqi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması baxımından vacibdir.

Maarifləndirmə tədbirləri və hüquqi mexanizmlərin gücləndirilməsi ilə yanaşı, valideynlər, uşaqlara nəzarəti həyata keçirən digər şəxslər, eləcə də dövlət tərəfindən uşaqların internetdən və rəqəmsal texnologiyalardan təhlükəsiz istifadəsinə davamlı nəzarət təmin edilməlidir.

Qeyd etmək istərdim ki, Ombudsman təsisatı tərəfindən bu məqsədlə uşaqların və valideynlərin iştirakı ilə təlimlər təşkil olunur, müzakirələr aparılır, bütün ölkə ərazisində müxtəlif maarifləndirici tədbirlər və təşviqat işləri həyata keçirilir.

Cari ildə uşaqların rəqəmsal təhlükəsizliyinin qorunması məqsədilə Ombudsman Aparatı tərəfindən sosial maarifləndirici videoçarx hazırlanaraq müxtəlif internet resurslarında və sosial şəbəkə platformalarında geniş şəkildə yayımlanıb.Eyni zamanda, bu sahədə preventiv tədbirlərin gücləndirilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim edilib.

### “Sosial şəbəkə platformalarında yaş məhdudiyyətlərinin tətbiqi zəruridir”

*– Sizcə, rəqəmsal platformalarda yaş məhdudiyyətlərinin effektiv tətbiqi və uşaqların şəxsi məlumatlarının qorunması üçün əlavə hüquqi və texniki mexanizmlərə ehtiyac varmı?*

– Ombudsmanın ünvanına daxil olan müraciətlərin və aparılmış araşdırmaların təhlili göstərir ki, rəqəmsal platformalarda müəyyən məhdudiyyətlərin tətbiqi və mövcud mexanizmlərin daha da təkmilləşdirilməsi zəruridir.

Bu baxımdan, ölkə başçısı İlham Əliyevin 2026-cı il 27 fevral tarixli “Uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması ilə bağlı tədbirlər haqqında” Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Həmin Sərəncamın icrası məqsədi ilə aidiyyəti istiqamətlər üzrə müvafiq tədbirlər həyata keçirilir. Belə ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, eləcə də “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının qanunlarına dəyişikliklərin edilməsi barədə qanun layihəsi hazırlanıb. Layihədə sosial şəbəkə platformalarında yaş məhdudiyyətlərinin tətbiqi və fərdi məlumatların qorunması ilə bağlı məsələlər öz əksini tapıb.

### “Valideynlər övladlarının internetdən istifadəsinə nəzarət etməlidirlər”

*– Süni intellekt və yeni rəqəmsal texnologiyaların sürətli inkişafı uşaq hüquqlarının müdafiəsi baxımından hansı yeni çağırışlar yaradır? Valideynlərin bu prosesdə rolu necə olmalıdır?*

– Rəqəmsal texnologiyaların geniş tətbiqi uşaqların inkişafı, bilik və məlumat əldə etməsi baxımından mühüm imkanlar yaratsa da, eyni zamanda onları müxtəlif risk və təhlükələrlə üz-üzə qoyur. Belə ki, uşaqların internetdən nəzarətsiz istifadəsi rəqəmsal asılılıq, kiberbullinq, diqqət dağınıqlığı, psixoloji travmalar, zorakılıq və digər mənfi hallara səbəb ola bilər.

Ombudsman Aparatı tərəfindən aparılan araşdırmalar göstərir ki, son illərdə uşaqlar arasında geniş yayılan interaktiv platformalar və onlayn oyunlar ciddi risklər yaradır. Uşaqlar üçün nəzərdə tutulmuş rəqəmsal platformalarda yaş məhdudiyyətlərinin əksər hallarda formal xarakter daşıması, effektiv nəzarət mexanizmlərinin kifayət qədər olmaması, həmçinin şəxsi məlumatların qorunması sahəsində mövcud boşluqlar onların hüquqlarının pozulmasına zəmin yaradır.

Rəqəmsal mühitdə uşaqların təhlükəsizliyinin təmin olunması hər birimizin üzərinə mühüm məsuliyyət qoyur.Uşaqların internetdə keçirdiyi vaxta, istifadə etdikləri rəqəmsal resurslara və qarşılaşdıqları məzmunun onların yaş xüsusiyyətlərinə uyğunluğuna davamlı nəzarət edilməlidir.

Onu da qeyd etmək istərdim ki, uşaqların qayğısına qalmaq və onların sağlam inkişafını təmin etmək ilk növbədə valideynlərin məsuliyyətidir. Valideynlər övladları ilə etibarlı ünsiyyət qurmalı, onların gündəlik həyatı, məşğuliyyəti və psixoloji vəziyyəti ilə mütəmadi maraqlanmalı, rəqəmsal mühitdə davranışları barədə məlumatlı olmalıdırlar. Bu nəzarət məhdudlaşdırıcı deyil, qarşılıqlı etimada əsaslanan ünsiyyət formasında həyata keçirilməlidir.

Eyni zamanda, valideynlər rəqəmsal texnologiyalar və yeni imkanlar barədə davamlı maariflənməli, övladlarının internetdən istifadəsinə nəzarət etməlidirlər. Bununla yanaşı, uşaqların təhsil aldıqları orta ümumtəhsil müəssisələri ilə müntəzəm əlaqə saxlamalı, onların təhsili, davranışı və inkişafı barədə məlumatlı olmalıdırlar.

### “Məhkum uşaqlarla mütəmadi maarifləndirici görüşlər keçirilir”

*– Cəzaçəkmə müəssisəsində saxlanılan yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının təmin olunması istiqamətində hansı tədbirlər həyata keçirilir?*

– Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Yetkinlik yaşına çatmayanlar üçün Penitensiar Müəssisəsində cəza çəkən şəxslərin hüquqlarının müdafiəsi ombudsmanın daim diqqət mərkəzindədir. Ombudsman və təsisatın əməkdaşları tərəfindən həmin müəssisəyə mütəmadi baş çəkmələr həyata keçirilir, saxlanılan şəxslərlərin ehtiyacları öyrənilir və hüquqlarının müdafiəsi istiqamətində zəruri tədbirlər görülür.

Bununla yanaşı, ombudsman tərəfindən məhkum uşaqlarla mütəmadi maarifləndirici görüşlər keçirilir, onlara hüquq və azadlıqlarının müdafiəsi, hüquqi biliklərinin və hüquq düşüncəsinin artırılması istiqamətində məlumat verilir.

Eyni zamanda, ombudsmanın Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə əməkdaşlığı çərçivəsində yetkinlik yaşına çatmayan islah olunan şəxslərin cəmiyyətə reinteqrasiyasını və sosial adaptasiyasını dəstəkləmək məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Bu çərçivədə onların paytaxtda yerləşən tarixi-mədəniyyət abidələrinə, istirahət və ictimai iaşə obyektlərinə mütəmadi səfərləri təşkil olunur.

Qeyd etmək istərdim ki, ombudsman tərəfindən cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərin ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirakının təmin edilməsinə dair hüquqi mexanizmin hazırlanması və bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi təklif olunub.

### Gələcək hədəflər

*– Sonda, uşaq hüquqlarının daha effektiv müdafiəsinin təmin olunması istiqamətində Ombudsman Aparatının yaxın illər üçün əsas hədəfləri və gözləntiləri barədə məlumat verməyinizi istərdik. Bu sahədə qanunvericiliyin və mövcud vəziyyətin təkmilləşdirilməsi ilə bağlı hansı təşəbbüslər və yeniliklər gündəmdədir?*

– Ombudsman tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində müxtəlif istiqamətlər üzrə araşdırmaların aparılması, bu sahədə məlumatlılığın artırılması, həyata keçirilən təhlillərin nəticələrinə uyğun olaraq qanunvericiliyin və mövcud vəziyyətin təkmilləşdirilməsi məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti qurumlara təqdim edilməsi, habelə maarifləndirmə və təşviqat fəaliyyətinin davam etdirilməsi nəzərdə tutulur.

Uşaqlara qarşı ailədə, təhsil müəssisələrində və digər mühitlərdə kobud rəftar hallarının qarşısının alınması məqsədilə mövcud vəziyyətin davamlı təhlili, qanunvericiliyin təkmilləşdirilməsi, institusional islahatların həyata keçirilməsi, preventiv və maarifləndirmə tədbirlərinin genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Aparılmış araşdırmalar göstərir ki, zorakılığa məruz qalmış uşaqlarla işin daha da təkmilləşdirilməsi, zorakılıqla mübarizə mexanizmlərinin gücləndirilməsi, eləcə də uşaqların rəqəmsal platformalardan istifadəsi ilə bağlı müvafiq məhdudiyyətlərin müəyyən edilməsi onların hüquqlarının etibarlı müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, alkoqollu və energetik içkilərin, həmçinin tütün məmulatlarının uşaqlar tərəfindən istifadəsinin qarşısının alınması məqsədilə qüvvədə olan qanunvericiliyin və mövcud nəzarət mexanizmlərinin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. Qeyd etmək istərdim ki, Ombudsman Aparatı tərəfindən uşaqların energetik içkilərdən istifadəsi ilə bağlı aparılmış araşdırmanın nəticələri və hazırlanmış təkliflər aidiyyəti dövlət qurumlarına təqdim olunub.

Aliment və ünsiyyət tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi uşaqların hüquqlarının tam şəkildə həyata keçirilməsində çətinliklər yaradır. Bu baxımdan, icra mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı ombudsmanın illik məruzələrində irəli sürülmüş təkliflərin həyata keçirilməsi aktual məsələlərdən biridir.

Ümumilikdə, uşaqlarla çalışan mütəxəssislərin, media nümayəndələrinin uşaq hüquqları və bu sahədə davranış qaydaları üzrə bilik və məlumatlılıq səviyyəsinin artırılması, beynəlxalq təcrübənin öyrənilməsi, aidiyyəti qurumlar arasında koordinasiyanın daha da gücləndirilməsi, vətəndaş cəmiyyəti institutlarının və uşaqların bu prosesə fəal şəkildə cəlb olunması uşaq hüquqlarının səmərəli müdafiəsinə mühüm töhfə verə bilər.

**Samirə KƏRİMOVA**

# “Bəzən problemlərini deməyə çəkinirlər”

## Psixoloq dəstəyi niyə vacibdir?




**Müasir dövrdə yeniyetmələrin üzləşdiyi stres, zorakılıq, kiberbullinq, ailədaxili problemlər və digər psixoloji çətinliklər məktəb psixoloqlarının rolunu daha da aktuallaşdırır. Onların əsas vəzifəsi şagirdlərin psixoloji rifahını qorumaq, yaranan problemləri vaxtında müəyyənləşdirmək və həlli istiqamətində dəstək göstərməkdir.**

Mövzu ilə bağlı “Azərbaycan müəllimi”nə danışan psixoloq Nuriyyə Quliyeva bildirib ki, məktəb psixoloqlarının fəaliyyəti məktəblər üçün ən vacib xidmətlərdən biridir:

“Məktəblərdə psixoloqlara ehtiyac var. Psixoloqlar müəllim və valideynlərlə birgə işləyirlər. Xüsusilə müəllimlər hər hansı narahatedici məqam gördükdə psixoloqdan dəstək alırlar. Məktəb psixoloqunun vəzifələri sırasında diaqnostika işi var. Yəni testlər, metodikalar tətbiq edərək problemi müəyyənləşdirmək vəzifələri sırasındadır. Amma tam korreksiya etmək məktəb psixoloqunun öhdəliyində deyil. Məktəb psixoloqu yüngül problem gördükdə ailəyə, müəllimlərə dəstək olur, istiqamətləndirir, öz tövsiyələrini verir. Daha ağır problemlərdə isə məktəbdənkənar psixoloqlara yönləndirir”.

N.Quliyevanın sözlərinə görə, şagirdlərin bir çox problemləri məhz psixoloqlarla iş şəraitində aşkara çıxır:

“Hətta elə problem var ki, erkən yaşlardan başlayır, amma valideynlər təyin edə bilmirlər. Elə uşaqlar var ki, onlarla fərdi işləmək daha rahatdır, amma qrupda sosiallaşa bilmirlər. Bundan əlavə, davranış qaydalarını bilmir, digər uşaqlarla doğru davranmırlar. Bununla bağlı bir çox problemlər məktəb dövründə ortaya çıxır, müəllimlər də bu haqda valideynlərə və psixoloqa məlumat verirlər. Valideynlər düşünə bilərlər ki, problem varsa, məktəbin psixoloqu həll etməlidir. Problemin həlli yalnız psixoloqun işi deyil. Valideyn, müəllim və şagird birlikdə işləməlidirlər ki, nəticə olsun”.

Sumqayıt şəhərindəki Təbiət elmləri təmayüllü gimnaziyanın 7-ci sinif şagirdi Mədinə Xəlilova qeyd edib ki, məktəb psixoloqu bəzən şagirdlərlə müxtəlif psixoloji test və sorğular keçirir:

“Həmin testlər şagirdlərin maraqlarını, bacarıqlarını daha yaxşı müəyyən etməyə kömək edir. Həm də psixoloqumuz maarifləndirici söhbətlər və seminarlar təşkil edir. Həmin görüşlərdə sağlam ünsiyyət, internetdən təhlükəsiz istifadə, özünəinamın artırılması və sağlam həyat tərzi müzakirə olunur. Bu tədbirlər bizim həm psixoloji, həm də sosial inkişafımıza mühüm töhfə verir. Şagirdlər dərs stresi, imtahan həyəcanı, ünsiyyət problemləri zamanı psixoloqdan dəstək ala bilirlər. Psixoloq bu problemlərin həllində yol göstərir və şagirdin özünü daha yaxşı hiss etməsinə kömək edir”.

Sumqayıt şəhəri 21 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Məryəm Əsədova məktəb psixoloqunun şagirdlər üçün etibarlı dəstək olduğunu düşünür. O deyir ki, psixoloq təkcə problemləri dinləmir, həm də şagirdlərin fikirlərini öyrənmək, onların məktəb mühitinə münasibətini anlamaq üçün mütəmadi olaraq görüş və sorğular təşkil edir:

“Özüm hələ məktəb psixoloquna müraciət etməmişəm, çünki buna ehtiyac olmayıb. Amma psixoloqumuz bizimlə müxtəlif mövzularda testlər keçirir, davranış qaydaları haqqında məlumat verir və hər hansı çətinliklə qarşılaşsaq, çəkinmədən ona müraciət edə biləcəyimizi deyir. Ən önəmlisi odur ki, bizimlə bölüşülən məlumatların məxfi saxlanıldığını bilirik. Bu da psixoloqa olan etimadı artırır”.

Sabunçu rayonu C.Məmmədyarov adına 155 nömrəli məktəbin şagirdi Pınar Əliyeva bildirib ki, məktəb psixoloqunun fəaliyyəti şagirdlər üçün çox faydalıdır:

“Mən şəxsən məktəb psixoloquna müraciət etməmişəm, amma psixoloqumuz tez-tez şagirdlərlə söhbət edir, problemlərini dinləyir. Bəzən uşaqlar özləri problemlərini deməyə çəkinir, amma psixoloqumuz bunu görəndə onlarla söhbət edir, dinləyir və yardım etməyə çalışır”.

**Rəşid QARAYEV**

# Bir teleqram Azərbaycanın elm tarixini dəyişdi




**Bir alim düşünün. Ölkəsinin iqlimini, relyefini araşdırır. Bəzən bir əraziyə gedib oranı qarış-qarış gəzir, yüksəklikləri tək-tək nəzərdən keçirir. Nəhayət, axtardığını tapır. İdeal yer seçilir. Onun bir amalı var: ölkəsində regionun ən mühüm elm mərkəzlərindən birini yaratmaq. Bu işə razılıq almaq üçün, bəlkə, onlarla, yüzlərlə məktub yazmışdı. Və 1959-cu il. Bir teleqram Azərbaycanın elm tarixini dəyişir. Almaniyadan sifariş olunan diametri 2 metr olan nəhəng teleskop Moskvaya çatmışdı. Bəli, o şəxs ölkəmizin elm tarixində silinməz iz qoyan Yusif Məmmədəliyev idi.**

### Moskvada başlayıb, Şamaxıda bitən tarix

Teleskop gəlməyinə gəlmişdi, amma düşmən də pusquda gözləyirdi. Sanki yeni teleskopun iyini almışdılar. Eşidər-eşitməz Ermənistan Elmlər Akademiyasının o vaxtkı rəhbərlərinin göz bəbəkləri böyümüş, iştahaları qabarmışdı. Yeni teleskopu Byurakan Rəsədxanasına aparıb, Şamaxıya isə oradakı köhnəni sırımaq üçün SSRİ rəhbərlərinin qapılarında gecələyirdilər. Lakin SSRİ Elmlər Akademiyasının prezidenti Aleksandr Nesmeyanovun Yusif Məmmədəliyevə böyük rəğbəti bütün naqis planları pozdu. 3 gün sonra teleskop artıq Bakıda idi.

İşlər sürətləndirilir, vaxt itirilmədən 2 metrlik teleskop Pirqulu yüksəkliyindəki məbədinə yerləşdirilir. Bu gün Şamaxı Astrofizika Rəsədxanasının simvoluna çevrilən həmin teleskop altmış ildən çoxdur ki, Azərbaycan elminə xidmət edir.

Yaydır, yolunuzu Şamaxıya salırsınızsa, buranı mütləq ziyarət edin! Baxın, diqqətlə baxın! Bir elm fədaisinin qurub yaratdığı bu əzəmətə baxın! Amma gözlərinizlə deyil, qəlbinizlə, milli kimliyinizlə baxın! Görün ki, elə çətin bir dövrdə aparılan mübarizə necə bəhər verib.

### Hamı yatır, onlar səmanı izləyirlər

İlk baxışdan bura sakit görünür, amma gecələri oyaqdır... Hamı yatanda alimlər o teleskopların arxasına keçib milyonlarla işıq ili uzaqlıqdakı ulduzları, qalaktikaları və Günəşi müşahidə edirlər.

Şamaxı Astrofizika Rəsədxanasının elmi işçisi Səbahəddin Alışovla bu haqda bir az söhbətləşdik. Deyir ki, yay aylarında ziyarətçilər gəlsə də, burada əsas fəaliyyət elmi-tədqiqatlardır. Qış aylarında isə turist, demək olar ki, olmur. Burada çalışan yüzə yaxın elmi işçinin hərəsinin öz tədqiqat istiqaməti var. Kimisi Günəşi araşdırır, kimisi ulduzların təkamülünü öyrənir… Ən geniş tədqiqat istiqaməti ulduz fizikasıdır. Rəsədxananın üç şöbəsi sırf bu sahə üzrə araşdırmalar aparır.

Alimlərin əldə etdiyi nəticələr təkcə rəsədxananın jurnalında deyil, dünyanın nüfuzlu elmi nəşrlərində də dərc olunur.

Hazırda Şamaxı Astrofizika Rəsədxanasında 6 teleskop var. Onlardan ikisi Günəşi, dördü isə digər səma cisimlərini müşahidə etmək üçündür. Bu isə sözünü etdiyimiz diametri 2 metr olan teleskopun uzun illər istifadə olunmuş idarəetmə pultudur. 2008—2012-ci illərdə aparılan geniş modernizasiya işlərindən sonra isə bütün idarəetmə sistemi kompüterləşdirilib. Texnologiya dəyişsə də, teleskop hələ də öz aktuallığını qoruyur.



### Milyonlarla kilometr yol qət edən daşlar…

Rəsədxanada maraq doğuran guşələrdən biri də meteorit kolleksiyasıdır. Burada Azərbaycan ərazisində müxtəlif illərdə düşmüş meteoritlər, eləcə də vulkanik mənşəli daşlar nümayiş etdirilir. Hər daşın arxasında milyonlarla kilometrlik kosmik səyahət dayanır. Buna baxanda sanki kainatı əlinin içində hiss edirsən…

### İşıq da işığa kölgə salarmış...

Astronomlar üçün ən dəyərli şey gecənin zülmət qaranlığıdır. Sovet dövründə bunun üçün ciddi qaydalar tətbiq olunurdu. Rəsədxananın ətrafında beş kilometr radiusda heç bir süni işıq mənbəyinin yaradılmasına icazə verilmirdi. Məqsəd teleskopların müşahidələrinə mane ola biləcək işıq çirklənməsinin qarşısını almaq idi. Lakin sonrakı illərdə bu qaydalara tam əməl olunmadı. Yeni tikililərin işıqları elmin işığına kölgə salmağa başladı.

İşıq da işığa kölgə salarmış. Qəribədir, deyilmi? Buna baxmayaraq, rəsədxana yenilənir, sistemlər təkmilləşdirilir. Əvvəl Dəmirçi kəndi yaxınlığındakı Mıxtökən dağında, sonra isə Kəlbəcərdə yeni teleskop quraşdırılması müzakirə olundu. Hələlik bu planların reallaşması yaxın görünmür. Ancaq alimlər deyirlər ki, hər tədqiqat üçün böyük teleskopa gərək də yoxdur. Elmi istiqamətdən asılı olaraq daha kiçik teleskoplarla da mühüm nəticələr əldə etmək mümkündür.

Şamaxı Astrofizika Rəsədxanasından ayrılarkən bir məqam adamı düşündürür. Burada çalışan insanlar hər gecə göyə baxırlar. Məqsədləri ulduzların gözəlliyini seyr etmək yox, kainatın sirlərinə bələd olmaqdır. Bəlkə də, buna görə rəsədxananın ən qiymətli sərvəti teleskoplar yox, dünən və bu gün onların arxasında dayanan insanlardır — başlarını dik tutan adamlar.

Əgər bu yay yolunuz Şamaxıya düşsə, yalnız təbiəti gəzməklə kifayətlənməyin. Bir vaxtlar böyük mübarizə hesabına Azərbaycana gətirilən teleskopun qarşısında dayanıb düşünün ki, bir insanın vaxtında verdiyi qərar onilliklər boyu bir ölkənin elminə necə işıq salır.

Bu gün o işıq Şamaxı dağlarını aşaraq ulduzlara uzanır.

**Çingiz SƏFƏRLİ**



# Uğur hekayələri

**“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı” çərçivəsində təhsil alan gənclər sırasında London Universitet Kollecinin (UCL) maliyyə ixtisası üzrə magistratura tələbəsi Ofelya Sübut qızı Əsədova da yer alır. O, AZƏRTAC-a müsahibəsində UCL-ni seçməsinin səbəblərindən, Londonda tələbə həyatından, maliyyə sektorunda süni intellektin rolu və karyera planlarından, eləcə də xaricdə təhsil almaq istəyən gənclərə tövsiyələrindən danışıb. Müsahibəni təqdim edirik.**



## LONDON UNİVERSİTET KOLLECİNDƏ TƏHSİL ALAN AZƏRBAYCANLI TƏLƏBƏ:

## “Dövlət Proqramı gənclərə beynəlxalq səviyyədə rəqabət aparmaq imkanı yaradır”

*- Ofelya xanım, bu ixtisası seçməyinizin səbəbi nə ilə bağlıdır?*

- Bakalavriat təhsilimi Azərbaycan Dövlət İqtisad Universitetində “Mühasibat uçotu” ixtisası üzrə fərqlənmə ilə başa vurmuşam. Bu akademik baza mənə şirkətlərin maliyyə hesabatlarını, biznes modelini və maliyyə qərarlarının biznes fəaliyyətinə necə təsir etdiyini daha dərindən qavramağa imkan yaratdı. UCL İdarəetmə Məktəbində “Maliyyə” ixtisasını seçməyimin əsas səbəbi isə bu sahənin həm analitik, həm də strateji düşüncə tələb etməsidir. Məni xüsusilə investisiya qərarları, kapital bazarları və risklərin idarə olunması maraqlandırır.

*- Niyə məhz London Universitet Kollecini seçdiniz? Bu universitetin sizə təqdim etdiyi imkanları necə qiymətləndirirsiniz?*

- UCL-in güclü akademik reputasiyası var və London kimi dünyanın aparıcı maliyyə mərkəzlərindən birində yerləşməsidir. Həmçinin proqramın məzmunu, praktiki tətbiq imkanları və karyera perspektivləri çox önəmlidir. Burada təhsil mənə maliyyəyə yalnız nəzəri fənn kimi deyil, real bazar qərarlarının verildiyi bir sahə kimi baxmağı öyrədir. UCL İdarəetmə Məktəbinin Londonun “Canary Wharf” maliyyə bölgəsində yerləşməsi tələbələr üçün böyük üstünlükdür. Maliyyə institutlarına, peşəkar tədbirlərə və fərqli karyera imkanlarına yaxın olmaq tələbənin dünyagörüşünü genişləndirir. Öyrəndiyim ən vacib məqamlardan biri odur ki, yaxşı maliyyəçi yalnız rəqəmləri hesablamağı deyil, onların arxasındakı iqtisadi məntiqi də izah etməyi bacarmalıdır.

*- Dövlət Proqramı çərçivəsində təhsil almaq sizin üçün nə ifadə edir?*

- Bu proqram mənə dünyanın aparıcı universitetlərindən birində təhsil almaq imkanı yaratdı. Lakin mən bunu yalnız şəxsi uğur kimi deyil, ölkəmizin gənclərə verdiyi dəyərin və insan kapitalına yatırdığı investisiyanın göstəricisi kimi görürəm.

Dövlət Proqramı istedadlı və məqsədyönlü gənclərə beynəlxalq səviyyədə rəqabət aparmaq imkanı yaradır. Xaricdə təhsil alan hər bir azərbaycanlı tələbə həm də ölkəsini təmsil edir. Buna görə də burada qazandığım bilik və təcrübəni gələcəkdə Azərbaycan üçün faydalı nəticəyə çevirmək mənim əsas məqsədlərimdən biridir.

*- Bu sahədə hansı istiqamətdə fəaliyyət göstərməyi planlaşdırırsınız?*

-Gələcəkdə investisiya analizi, portfel idarəçiliyi, qiymətləndirmə və risklərin idarə olunması istiqamətlərində fəaliyyət göstərməyi planlaşdırıram. Əsas məqsədim rəqəmləri düzgün şərh etmək, bazarın nələri düzgün və ya səhv qiymətləndirdiyini anlamaq və əsaslandırılmış qərarlar verə bilməkdir. Uzunmüddətli perspektivdə isə beynəlxalq təcrübəmi Azərbaycan maliyyə sektorunun inkişafına töhfə verəcək formada tətbiq etmək istəyirəm.

*- Londonda tələbə həyatı necə keçir? Təhsillə gündəlik həyatı balanslaşdırmaq çətin olurmu?*

- Londonda tələbə həyatı həm çox dinamik, həm də məsuliyyətlidir. Şəhər çox böyük imkanlar təqdim edir: akademik tədbirlər, karyera görüşləri, kitabxanalar, muzeylər, müxtəlif mədəni mühitlər və peşəkar şəbəkələşmə imkanları. Burada vaxtı düzgün idarə etməyi bacarmaq çox vacibdir. Təhsillə gündəlik həyatı balanslaşdırmaq bəzən çətin olur, xüsusilə də intensiv dərs həftələri,

“Burada qazandığım bilik və təcrübəni gələcəkdə Azərbaycan üçün faydalı nəticəyə çevirmək mənim əsas məqsədlərimdən biridir”

qrup layihələri və imtahan dövrlərində. Lakin zamanla prioritetləşdirməyi öyrənirsən. Xaricdə təhsil yalnız auditoriyada keçən dərslərdən ibarət deyil; fərqli insanlarla ünsiyyət, yeni mühitə uyğunlaşmaq və müstəqil qərarlar vermək də bu təcrübənin mühüm hissəsidir.

*- Süni intellekt və rəqəmsal texnologiyaların maliyyə sektoruna təsirini necə qiymətləndirirsiniz? Bu mövzular proqramınızda da öyrədilirmi?*

- Süni intellekt və rəqəmsal texnologiyalar maliyyə sektorunu ciddi şəkildə dəyişir. Bu dəyişiklik yalnız əməliyyatların avtomatlaşdırılması ilə məhdudlaşmır; investisiya analizi, risk modelləşdirməsi, kredit qiymətləndirilməsi və bazar məlumatlarının emalı kimi sahələrdə də yeni imkanlar yaradır. Bu gün maliyyə sektorunda rəqabət üstünlüyü yalnız kapitala çıxışla deyil, həm də məlumatı daha sürətli və daha düzgün təhlil etmək bacarığı ilə ölçülür.

Eyni zamanda, süni intellekt insan qərarını tam əvəz etmir; daha çox onu gücləndirən alət rolunu oynayır. Maliyyədə etik yanaşma, model riskinin düzgün qiymətləndirilməsi və nəticələrin tənqidi təhlili çox vacibdir. Yəni texnologiya nə qədər inkişaf etsə də, son qərarın arxasında sağlam mühakimə və məsuliyyət dayanmalıdır.

UCL-də də bu yanaşma hiss olunur. Proqramda kəmiyyət metodları, maliyyə modelləşdirməsi, real bazar məlumatları ilə işləmək və texnologiyanın maliyyə qərarlarına təsiri kimi mövzulara xüsusi diqqət yetirilir. Bu da tələbələrə müasir maliyyə sektorunun tələblərinə daha hazırlıqlı olmağa kömək edir.

*- Təhsilinizi başa vurduqdan sonra Azərbaycana qayıdaraq bilik və təcrübənizi ölkəmizdə tətbiq etməyi düşünürsünüzmü?*

- Azərbaycan maliyyə sektorunun inkişafı, kapital bazarlarının dərinləşməsi, investisiya mədəniyyətinin formalaşması və risklərin daha peşəkar idarə olunması baxımından böyük potensiala malikdir.

Xaricdə təhsil almağın verdiyi imkanlardan biri iki fərqli perspektivi birləşdirməyi bacarmaqdır: tələbələr beynəlxalq təcrübəni görürlər, eyni zamanda, öz ölkələrinin reallıqlarını anlayırlar. Mən də gələcəkdə bu iki baxışı birləşdirərək maliyyə sahəsində faydalı işlər görmək istəyirəm. Azərbaycana qayıdaraq həm öz peşəkar fəaliyyətimlə, həm də bilik paylaşımı ilə töhfə vermək mənim üçün önəmlidir.

*- Xaricdə magistratura təhsili almaq istəyən azərbaycanlı gənclərə hansı tövsiyələri verərdiniz?*

- İlk tövsiyəm ondan ibarətdir ki, hazırlıq prosesinə mümkün qədər erkən başlamaq lazımdır. Bu proses yalnız sənəd göndərməkdən ibarət deyil; akademik nəticələr, dil biliyi, motivasiya məktubu və seçilən proqramla bağlı aydın məqsəd zamanla formalaşır. Buna görə də addım-addım və planlı şəkildə hazırlaşmaq çox önəmlidir.

Eyni zamanda, gənclərə tövsiyə edərdim ki, yalnız dərslərlə kifayətlənməsinlər. Təcrübə proqramları, könüllülük, tələbə təşkilatları və seçdikləri sahə ilə bağlı əlavə fəaliyyətlər həm biliklərini, həm də özünəinamlarını artırır. Bu yola çıxmaq istəyən bütün gənclərə uğurlar arzulayıram.

**Aytən ABBASLI,**
**AZƏRTAC-ın xüsusi müxbiri**
**London**

# Bu günün medalçıları, sabahın dünya çempionları

**Gənc idmançılarımızın əzm və inamla qazandıqları qələbələr onları gələcək uğurlar üçün ruhlandırır. "Azərbaycan müəllimi" bu yaxınlarda ilk dəfə keçirilən Məktəblilərin Respublika İdman Olimpiadasında yer tutan şagirdlərimizi oxucularımıza təqdim edir.**



### "Olimpiadada bürünc medal qazandım"

Rəsul Abbaszadə Bakı şəhərində anadan olub. Artıq 3 ildir ki, yunan-Roma güləşi ilə məşğuldur. Rəsulu bu idman növünə həvəsləndirən Azərbaycan Deflimpiya Komitəsinin məşqçisi Tərlan Mürvətov olub. O deyir ki, idman onun həyatının ayrılmaz hissəsinə çevrilib: "Olimpiadada bürünc medal qazandım. Qələbəmin arxasında zəhmətim, əzmim dayanır. Bu səbəbdən də davamlı məşqlərdə oluram. Qeyd edim ki, Zəngilan Uşaq-Gənclər İdman və Şahmat Məktəbinin yetirməsiyəm. Qarşıdakı yarışlarda komandamızı layiqincə təmsil edib böyük uğurlar qazanacağıma inanıram. Mənə idmanda motivasiya verən, dəstək olan "Təhsil" Respublika İdman Mərkəzinin baş məşqçisi İslam Cəfərova, üzərimdə əziyyəti olan Tarış Əbilova minnətdarlığımı bildirirəm".

### "Çempion oldum"

Məktəblilərin Respublika İdman Olimpiadasında uğura imza atan növbəti qaliblərdən biri də İsmayıl Məmmədovdur. O da Zəngilan Uşaq-Gənclər İdman və Şahmat Məktəbinin yetirməsidir. Yunan-Roma güləşi üzrə 85 kq çəki dərəcəsində I yerə layiq görülüb: "İki il əvvəl yay tətilimi daha səmərəli keçirmək üçün güləşlə məşğul olmağa başladım. O zaman güləşə həvəskar olaraq başlamışdım. Zaman keçdikcə məndə güləşə qarşı sevgi yarandı, Öz gücümün, potensialımın fərqinə vardım və buna daha məsuliyyətlə yanaşdım. Bütün gücümü, diqqətimi güləşə yönəltdim və zaman keçdikcə respublika, rayon turnirlərində yaxşı nəticələr əldə etdim. Məktəblilərin Respublika İdman Olimpiadasında çempion oldum".

### "Nəticəm istədiyim kimi oldu"

Olimpiadada gümüş medal qazanan Məhəmmədəli Əliyev də Zəngilan UGİŞM-in yetirməsidir. İdmana akrobatika ilə başlasa da, daha sonra bir müddət cüdo ilə məşğul olub: "5 ildir ki, yunan-Roma güləşi ilə məşğulam. İdmana həvəsim birdən-birə yarandı, valideynlərim də dayaq oldu. Ailəmizdə məndən əlavə qardaşım da idmanla məşğul olur.

Olimpiadaya qatılanda yer tutacağıma inanırdım. Nəticəm istədiyim kimi oldu. İdmanda qazandığım uğurlara görə əziyyətimi çəkən müəllimlərim Tarış Əbilova, "Təhsil" Respublika İdman Mərkəzinin baş məşqçisi İslam Cəfərova təşəkkürüm sonsuzdur".

### "Gözləntilər nəticə ilə üst-üstə düşəndə..."

Olimpiadanın növbəti bürünc medalçısı gələcək yarışlarda dünya və olimpiya çempionu olmağı hədəfləyən Afəddin Əmənovdur. 5 ildir ki, güləşlə məşğul olur. Gələcək hədəfi idman karyerasında peşəkar səviyyəyə çatmaqdır: "Qalibiyyətlərim məni bu yolda ruhlandırır. Yarışlara qatılanda gözləntilər nəticə ilə üst-üstə düşəndə daha gözəl olur. Qazanacağım uğurlar qarşıdadır. Mənə dəstək olan ailəmin, müəllimlərimin əməyi danılmazdır".

**Rəmziyyə HƏSƏNOVA,
Qarabağ və Şərqi
Zəngəzur üzrə regional təmsilçi**



# Komandamız Avropa Universitet Oyunlarının yarımfinalına yüksəlib

**15-25 iyul tarixlərində İtaliyanın Salerno şəhərində keçirilən və Avropa Universitet İdmanı Assosiasiyası (EUSA) tərəfindən təşkil olunan universiadada ölkəmiz stolüstü tennis və futzal üzrə təmsil olunur. Futzal yarışlarında Azərbaycan İdman Akademiyasının komandası ölkəmizi təmsil edir.**

Komandamız turnirin dörddə bir final mərhələsində güclü Portuqaliya komandasını 3:1 hesabı ilə məğlub edərək yarışın yarımfinalına vəsiqə qazanıb.

Qeyd edək ki, Azərbaycan İdman Akademiyasının komandasının Avropa Universitet Oyunlarında iştirakı Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının və Azərbaycan İdman Akademiyasının dəstəyi ilə təmin olunub.

Komandamıza yarımfinal görüşündə uğurlar arzulayırıq.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 6873 **Sifariş:** 945

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1983-cü ildə Mahmudov Elşad Müzəffər oğluna verilmiş ЛВ-010775 nömrəli diplom itdiyi üçün etibarsız saylılır.

**Qazax rayon** Aşağı Əskipara kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Məmmədova Səadət Məhəmməd qızına verilmiş B-142946 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta məktəbin VIII sinfini 1986-cı ildə bitirmiş Məmmədova Solmaz Novruz qızına verilmiş 123888 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta məktəbi 2020-ci idə bitirmiş Rzayev Yusif Ağamirzə oğluna verilmiş E-323294 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Akademik Zərifə Əliyeva adına Liseyi** 2025-ci ildə bitirmiş Mütəllimov Rəşad Rüstəm oğluna verilmiş E-767810 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli məktəb-liseyi 1990-cı ildə bitirmiş Rəfiyev Faiq Əltağı oğluna verilmiş A-079753 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Göylər Dağ kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Kərimov Azay Fərid oğluna verilmiş E-598705 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**R.Q.Əliyev adına Bakı Əczaçılıq məktəbi** tərəfindən (1 nömrəli Bakı Tibb Kolleci) 1983-cü ildə Hüseynov İlham Əvəzəli oğluna verilmiş ЖТ-027790 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 2020-ci ildə Məmmədova Günan Arif qızına verilmiş C-081048 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 32 nömrəli tam orta ümumtəhsil məktəbi 2002-ci ildə bitirmiş Kotomina Səbinə Aleksandrovnaya verilmiş A-607126 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı İdarəetmə və Texnologiya Kolleci** (indiki ADNSU-nun nəzdində Sənaye və Texnonologiya Kolleci) tərəfindən 2019-cu ildə Məhərrəmova Ayşə Sərdar qızına verilmiş AA-131351 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2011-ci ildə Qasımova Rübabə Sahib qızına verilmiş B-222616 nömrəli bakalavr diplomu və diploma əlavə, 2015-ci ildə verilmiş AM-005890 nömrəli magistr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**Bakı şəhər** 137 nömrəli tam orta məktəbin IX sinfini 2017-ci ildə bitirmiş Yüce Sabiha Sadullah qızına verilmiş C-019917 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Ulacalı kənd tam orta məktəbi 2020-ci ildə bitirmiş Abuşov Məmmədxan Ramin oğluna verimiş E-286205 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** Yanşaq kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş İbrahimov Asif Cümşüd oğluna verilmiş 060648 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 6 nömrəli tam orta ümumtəhsil məktəbi 1995-ci ildə bitirmiş Şahverdiyeva (Sultanova) Zülfiyyə Gündüz qızına verilmiş A-0296 nömrəli tam orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Qurbanova (Məhərrəmova) Sara Hüseynağa qızına verilmiş A-861345 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 1994-cü ildə verilmiş A-114972 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 117 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Mehraliyev Nihad İlham oğluna verilmiş E-492609 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yuxarı Xalac-1 kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Rəhimova Ayşən Cabir qızına verilmiş A-547792 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 1999-cu ildə Qaravəliyev İlkin Çingiz oğluna verilmiş A-021396 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Əhmədbəyli kənd tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Həsənov Asif Şamil oğluna verilmiş B-023270 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Sarıcalar kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Xəlilov Rövşən Abasət oğluna verilmiş A-880587 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 17 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Əhmədov Mahmud Taleh oğluna verilmiş A-321964 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Təvəkkülova (Rəfi) Məryəm Ağarəfi qızına verilmiş 555747 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2005-ci ildə Həsənova Sədaqət Vidadiyevnaya verilmiş B-025254 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2010-cu ildə Musayev Musa Oqtay oğluna verlmiş BB-I-014269 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Əliabad kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2008- cil idə bitirmiş Kərimova Səidə Ələddin qızına verilmiş A-395435 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Əsgərov Kamal Samir oğluna verilmiş E-738927 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Həsənabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Ağayeva Fərqanə Əbəlfəz qızına verilmiş A-060568 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Qandax kənd tam orta ümumtəhsil məktəbi 1988-ci ildə bitirmiş Babayev Faiq İsmayıl oğluna verilmiş AK-446524 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 3 nömrəli məktəb-liseyi 2025-ci ildə bitirmiş Fətəliyev Mais Rais oğluna verilmiş E-818187 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi Pedaqoji Texnikumu** tərəfindən 2014-cü ildə Musayeva (Kazımova) Samaya Mənsur qızına verilmiş AA-044216 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Bəliton kənd tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Quluzadə Aysun Zahid qızına verilmiş A-396801 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 4 nömrəli humanitar təmayüllü məktəb-liseyin IX sinfini 2006-cı ildə bitirmiş Əliyeva (Qurbanova) Günel Zakir qızına verilmiş A-315542 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Zövlə kənd tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Rzayeva Məhbubə Şamil qızına verilmiş AK-600491 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2013-cü ildə Rəcəbov Niyat Murad oğluna verilmiş AA-032643 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərkibində Musiqi Kolleci tərəfindən 2015-ci ildə Quliyeva Nurlana Faiq qızına verilmiş AA-055454 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Əliabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1975-ci ildə bitirmiş Nurməmmədov Fatudin Sulxay oğluna verilmiş A-304189 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Goronboy şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Rüstəmov Ruslan Rüstəm oğluna verilmiş A-423265 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1998-ci ildə Məmmədova Nəzakət Əzizağa qızına verilmiş A-027385 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad İnstitutu** tərəfindən 1999-cu ildə Göyçayskaya Nəzirə Yaşar qızına verilmiş A-031781 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2001-ci ildə Göyçayskaya Nəzirə Yaşar qızına verilmiş MNA-004770 nömrəli fərqlənmə magistr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 244 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Mustafayev Məhəmməd Natiq oğluna verilmiş E-796916 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 240 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Mürsəlbəyov Nicat Fazil oğluna verilmiş A-194654 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa Mədəni-Maarif Texnikumu** tərəfindən 2008-ci ildə Həsənova Samirə Xəqani qızına verilmiş BB-II-074687 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Alpan kənd tam orta ümumtəhsil məktəbi 1986-cı ildə bitirmiş Ələskərov Ələskər Ramazan oğluna 2022-ci ildə verilmiş E-539643 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının kollektivi filialın Dil-ədəbiyyat və onların tədris texnologiyası kafedrasının baş müəllimi

**HÜSEYNOVA RƏNA KAZIM QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

**Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi**

## Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı

**2026-2027-ci tədris ili üzrə qeyd olunan kafedralara vakant müəllim vəzifələrini tutmaq üçün müsabiqə**

## ELAN EDİR:

1. Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası kafedrası (psixologiya müəllimi);
2. Fizika, riyaziyyat, informatika və onların tədrisi texnologiyası kafedrası (riyaziyyat müəllimi);
3. Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası kafedrası (xarici dil (ingilis dili) müəllimi);
4. İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası kafedrası (Sosial iş sahəsi üzrə müəllim).

Müsabiqədə elmi-pedaqoji təcrübəyə, müvafiq elmi dərəcəyə, elmi ada malik olan və magistr elmi ixtisas dərəcəli şəxslər iştirak edə bilərlər. Müraciət edən namizədlərdən aşağıdakılar tələb olunur:

- *kompüterdən (office proqramları - word, excel, power point, microsoft teams və s.) istifadə bacarığı;*
- *tədrisin onlayn formada təşkili üzrə bacarıqlar;*
- *yüksək peşə-ixtisas və mənavi keyfiyyətlər.*

**Sənədlər:**
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;
- Diplom və diploma əlavələrin surəti;
- Əmək kitabçasının surəti.

Sənədlər bu elan qəzetdə və **adpuagcabedi.edu.az** saytında dərc olunan gündən 30 gün müddətində elektron qaydada qəbul edilir.

**E-poçt:** adpu_aqcabedi@mail.ru
adpu.agcabedi.filiali@adpu.edu.az
**Ünvan:** AZ-0400. Ağcabədi şəhəri, Ü.Hacıbəyli pr-ti, 210

*DİREKTORLUQ*